## Türkiyə şirkəti Ukraynada PUA istehsal etməyi planlaşdırır



**Türkiyənin "Baykar Makina" şirkəti Ukraynada "Bayraktar Kızılelma" adlı yeni reaktiv səsdən sürətli pilotsuz uçuş aparatı (PUA) istehsal etməyi planlaşdırır.**

"Report" UNIAN-a istinadən xəbər verir ki, bu barədə şirkətin baş direktoru Haluk Bayraktar məlumat verib. Onun sözlərinə görə, artıq zavodun tikintisinə başlanılıb: "Ukrayna ilə həyata keçirəcəyimiz layihələrə dair uzunmüddətli planlarımız var. "Baykar" şirkəri Ukraynada fabrik, tədqiqat mərkəzi və qabaqcıl istehsal mərkəzi tikməyə başlayıb. Beləliklə, burada bütün sistemləri istehsal etmək istəyirik". H.Bayraktar vurğulayıb ki, Ukraynadakı zavodda "Bayraktar TB2" və "Bayraktar Akıncı" dronları da istehsal olunacaq.



## Ukraynada hərbi vəziyyət rejimi uzadılacaq

**Ukrayna Prezidenti Vladimir Zelenski ölkədə hərbi vəziyyət rejiminin uzadılması barədə qanun layihəsini parlamentə göndərib.**

APA Unian.net-ə istinadən xəbər verir ki, qanun layihəsinin mətni açıqlanmayıb. Deputat Yaroslav Jeleznyak hərbi vəziyyət rejiminin çox güman ki, 90 gün uzadılacağını, amma rəsmi məlumatı gözləmək lazım olduğunu deyib.


❒ № 143 (5665), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 13 avqust 2022-ci il (şənbə)




# Xroniki xəstələr evdən çıxmasın

### İsti havalarda yağlı yeməklərdən uzaq durmaq lazımdır

**Bu gün havanın temperaturu 41 dərəcəyədək yüksələcək. Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Belə havalarda insanlar istinin təsirindən bir çox problemlərlə qarşılaşırlar.**

**Çünki isti hava şəraiti insan bədənində maye və duzun azalması faktorunu meydana çıxarır. Bəzən çölə çıxarkən düzgün saat seçilmir. Nəticədə yüksək temperatur insanların səhhətində narahatlığa səbəb olur. Xüsusilə də, istinin vuracağı fəsadlar hər hansı xəstəliyi olan və meteohəssas şəxslərdən daha çox diqqət tələb edir. Həkimlər də əhalini kəskin isti havalarda ehtiyatlı olmağa çağırır.**

**Həkim-terapevt Aygün Sayılova istidən qorunmaq üçün bir sıra tövsiyələrini "Şərq"ə bölüşüb. Onun sözlərinə görə, insanlar işlərini günün isti saatlarına saxlamalı deyillər...**

(səh.7)



## Hərbçilərimiz istənilən təxribatın qarşısını almağa hazırdır

### Azad olunan ərazilərdə döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilir

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrin xidməti-döyüş fəaliyyəti yüksək səviyyədə təşkil edilir.**

Müdafiə Nazirliyinin yaydığı məlumata görə, çətin relyefli və sərt iqlim şəraitli ərazilərdə gecə və gündüz fasiləsiz xidmət aparan şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması, döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması istiqamətində zəruri tədbirlər görülür. Dəqiqləşdirilmiş döyüş mövqelərində xidmət edən hərbi qulluqçularımız istənilən təxribatın qarşısını almağa hər an hazırdırlar.

## KİV: "Çin Bayden və Si Cinpinin görüşünə hazırlıq görür"



**Çin rəsmiləri noyabrda keçiriləcək İyirmilər qrupu və ya Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı sammiti çərçivəsində Çin Xalq Respublikasının Sədri Si Cinpinlə ABŞ Prezidenti Cozef Bayden arasında görüşə hazırlıq işləri görürlər.**

"Report" xəbər verir ki, bu barədə mənbələrə istinadən "The Wall Street Journal" məlumat yayıb.

Qeyd olunub ki, Çin liderinin xaricə səfərinin bu hissəsinin planlaşdırılması ilkin mərhələdədir və əlavə düzəlişlər edilə bilər.

Nəşr qeyd edir ki, bu planlar təsdiqlənərsə, Si Cinpin təxminən üç ildə ilk xarici səfərini edəcək və 2021-ci ilin yanvarında Amerika liderinin andiçmə mərasimindən sonra ilk dəfə Baydenlə görüşəcək.

# Prezident göstəriş verib

### "Yaxın zamanlarda əhalini Laçına, Zabuxa, Susa qaytaracağıq"



### Prezident İlham Əliyev: "Ermənistanla Azərbaycan arasında gedən normallaşma prosesində Qarabağ mövzusu yoxdur"

"Yaxın həftələrdə Ermənistandan Zəngəzur dəhlizinin marşrutunu gözləyirik". Bu sözləri Prezident İlham Əliyev avqustun 12-də Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində söyləyib. Dövlət başçısı deyib ki, İkinci Qarabağ müharibəsindən təxminən iki il keçir. Amma bu iki il ərzində nə qədər böyük dəyişikliklər baş verib: "Mən hələ orada apardığımız bərpa, yenidənqurma işlərini kənara qoyuram, bunlar hamısı göz qabağındadır. Şüurda nə qədər dəyişikliklər baş verir. Nəyə görə? Düzgün siyasətimizə görə. Çünki müharibə başa çatandan dərhal sonra mən demişəm ki, bizə sülh lazımdır. Biz Ermənistanla sülh danışıqlarına başlamalıyıq. Hələ ki, müsbət cavab almamışıq, amma ümid edirəm ki, alacağıq.

(səh.2)

# Ermənilərə son şans...

### Bundan sonra heç bir qüvvə Azərbaycanı antiterror əməliyyatlarından saxlaya bilməz



**Artıq Rusiya sülhməramlıları da fəaliyyətləri Azərbaycanın hüquqi çağırış və tələbləri əsasında qururlar**

**"Azərbaycanın keçirdiyi "Qisas" antiterror əməliyyatı, Gorus-Xankəndi yoluna alternativ marşrutun tikintisinin yekunlaşması ermənilərin dalandakı hayqırtılarını çoxaldır".** Bu barədə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, bu, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində yaşayan ermənilərin ümid bağlayacağı yerlərin ağzının "qıfıllanması" ilə əlaqəlidir...

(səh.3)



## Yol qəzasında 4 erməni qadın ölüb

### Rus sülhməramlılarının maşını erməni sürücünün avtomobili ilə toqquşub

**Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarına məxsus "HAVAL H9" markalı avtomobil erməni sürücünün idarə etdiyi "VAZ-2107" markalı avtomobillə toqquşub.**

Trend erməni KİV-lərinə istinadən bildirir ki, hadisə Xankəndi şəhəri yaxınlığında baş verib.

Nəticədə 4 nəfər ölüb. Ölənlərin hamısı qadındır.

Ağır xəsarət alan erməni sürücü xəstəxanaya yerləşdirilib.

## Vəfat edən olmayıb

### Azərbaycanda son sutkada 520 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 520 yeni yoluxma faktı qeydə alınıb, 518 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxanlar arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 804 165 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 791 203 nəfər müalicə olunaraq sağalıb, 9 768 nəfər vəfat edib, aktiv xəstə sayı 3 194 nəfərdir.

## Xəzər dənizində 4 nəfər batıb



**Xəzər dənizində iki nəfər batıb. Bu barədə Fövqəladə Hallar Nazirliyindən (FHN) məlumat verilib.**

Bildirilib ki, nazirliyin "112" qaynar telefon xəttinə Abşeron rayonu, Novxanı kəndində, dənizdə (nəzarətsiz ərazi) 2 nəfərin batması barədə məlumat daxil olub. Hadisə yerinə FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu cəlb olunub. Novxanıda dənizdə batan şəxslərin meyiti sudan çıxarılıb.

Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Xaçmaz rayonu, Niyazoba kəndində, dənizdə (nəzarətsiz ərazi) 2 nəfərin batması barədə də məlumat daxil olub. Hadisə yerinə FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu cəlb olunub.



## "Qonşu ölkə Azərbaycanı içindən dağıtmağa çalışır"

Fazil Mustafa: "Cəhalət, ekstremizm ölkədə ermənidən, rusun imperiya maraqlarından daha böyük təhlükədir"

(səh.5)

## "Sərhədsiz Reportyorlar" Azərbaycanın səsini eşitmək istəmir

Natiq Məmmədli: "Bu təşkilatın qərəzli münasibəti təkcə Azərbaycana qarşı deyil, eyni zamanda, Türkiyə və bütün türk-müsəlman ölkələrinə qarşı yönəlib"

(səh.4)





# Prezident göstəriş verib

## “Yaxın zamanlarda əhalini Laçına, Zabuxa, Susa qaytaracağıq”

**“Yaxın həftələrdə Ermənistandan Zəngəzur dəhlizinin marşrutunu gözləyirik”. Bu sözləri Prezident İlham Əliyev avqustun 12-də Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində söyləyib. Dövlət başçısı deyib ki, İkinci Qarabağ müharibəsindən təxminən iki il keçir. Amma bu iki il ərzində nə qədər böyük dəyişikliklər baş verib:**

”Mən hələ orada apardığımız bərpa, yenidənqurma işlərini kənara qoyuram, bunlar hamısı göz qabağındadır. Şüurda nə qədər dəyişikliklər baş verir. Nəyə görə? Düzgün siyasətimizə görə. Çünki müharibə başa çatandan dərhal sonra mən demişəm ki, bizə sülh lazımdır. Biz Ermənistanla sülh danışıqlarına başlamalıyıq. Hələ ki, müsbət cavab almamışıq, amma ümid edirəm ki, alacağıq. Delimitasiya komissiyası yaradılmalıdır. Ona da etiraz edirdilər, nəticədə razılaşdılar. Zəngəzur dəhlizi lazımdır, ona da etiraz edirdilər. İndi yaxın həftələrdə biz onlardan Zəngəzur dəhlizinin marşrutunu gözləyirik. Qarabağda yaşayan ermənilər də gördülər ki, Azərbaycandan onlara ancaq xeyir gələ bilər”. Ölkə rəhbəri gələcəyə nikbinliklə baxdığını bildirib. Prezident İlham Əliyev bir daha xatırladıb: ”Həmişə istədiyimizə nail oluruq. İstədiyimiz də odur ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, müharibə olmasın, Azərbaycan uğurla inkişaf etsin, xalqımız yaxşı, firavan yaşasın”.

### “Ermənistanla Azərbaycan arasında gedən normallaşma prosesində Qarabağ mövzusu yoxdur”

**“Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə müstəqilliyi, nə də hansısa xüsusi imtiyazı”**

**Dövlət başçısı bildirib ki, Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə müstəqilliyi, nə də hansısa xüsusi imtiyazı:** ”Qarabağda yaşayan ermənilər düzgün addım atmalıdırlar. Başa düşməlidirlər ki, onların gələcəyi ancaq Azərbaycan cəmiyyətinə inteqrasiyadan keçir. Başqa cür mümkün deyil. Yəni biz real həyatda yaşayırıq. Həm iqtisadi, həm coğrafi, həm nəqliyyat nöqteyi-nəzərindən Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarix nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərindən tərkib hissəsidir”. Prezident deyib ki, əgər Qarabağda kimsə yenə də hansısa populizm naminə, yaxud da kimdənsə qorxduğu üçün hansısa statusdan, müstəqillikdən söhbət aparırsa, bilmək lazımdır ki, o, erməni xalqının birinci düşmənidir: ”Çünki Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə müstəqilliyi olacaq, nə də ki, hansısa xüsusi imtiyazı. Azərbaycan vətəndaşları necə, onlar da elə. Azərbaycan vətəndaşlarının hüquqları necə qorunursa, onların da elə. Azərbaycanda yaşayan xalqların hüquqları necə qorunursa, onların da elə. Yol ancaq budur”.

**“Ermənistanın tarixində, nəinki Qarabağın, belə keyfiyyətli yol olmayıb”**

**Prezident vurğulayıb ki, Ermənistanla Azərbaycan arasında gedən normallaşma prosesində Qarabağ mövzusu yoxdur:** ”Belə cəhdlər olub, amma mən buna heç vaxt razılıq verməmişəm. Ermənistanın buna nə dəxli var. Bu bizim daxili işimizdir. Bu gün danışıqlar masasında hər hansı bir statusdan, ümumiyyətlə, söhbət belə getmir. Nədən söhbət gedir? Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizliyindən. Mən də demişəm bəli, onların hüquqları da, təhlükəsizliyi də Azərbaycan dövləti tərəfindən təmin ediləcək. Mən nəyi deyirəmsə, onu da həmişə icra edirəm. Yeni Laçın yolunun inşası zamanı biz bunu gördük. Çünki biz bu yolu təzə inşa etməyə başlayanda rus sülhməramlıları bizim inşaatçıları elə bil ki, yerli əhalidən qoruyurdu, ya da ki, onları bizdən, bizim inşaatçılardan. Bilmirəm kimi kimdən qoruyurdu, amma hər halda onlar orada var idi. Bir müddətdən sonra onlar çıxıb getdilər. Təqribən son 6-7 ay ərzində, ümumiyyətlə, yol boyunca bir dənə də Rusiya sülhməramlısının olmadığını diqqətə çatdıran Prezident İlham Əliyev deyib: ”Bizim inşaatçılar orada, kəndlərdə yaşayan yerli ermənilərlə təmasda idilər, hətta onların bəziləri gəlib kömək edirdi. Təşəkkürünü bildirirdi ki, belə keyfiyyətli yol tikirik. Ermənistanın tarixində, nəinki Qarabağın, belə keyfiyyətli yol olmayıb. Onların tikdirdiyi yollar indi dağılır, hələ bir il keçməyib. Ona görə bu təmaslar artıq gedir və bu, çox önəmlidir. Mən də bunu alqışlayıram. İnsanlar arasındakı təmaslar uzunmüddətli sülhə xidmət göstərəcək”.

**Prezident İlham Əliyev deyib ki, biz Laçına, Zabuxa, Susa qayıtmalıyıq:** ”Mən artıq göstəriş verdim. Laçın şəhərinin, Sus, Zabux kəndlərinin camaatı ilə əlaqə saxlasınlar. Biz yaxın zamanlarda onları öz doğma yerlərinə qaytaracağıq. Ermənistan isə sadəcə olaraq, yenə də fitnəkarlıqla məşğuldur. Bir də ki, onlar başa düşməlidir, vaxt uzatmaq onlara heç nə verməyəcək. Əgər onlar fikirləşirlər ki, bir ildən, yaxud il yarımdan sonra nəsə dəyişəcək bunların xeyrinə, səhv edirlər. Nəsə dəyişə bilər, amma bizim xeyrimizə. Çünki dünyada, bölgədə gedən geosiyasi vəziyyət göz qabağındadır. Böyük siyasətçi olmaq lazım deyil ki, bunu hər kəs görsün. Azərbaycanın artan gücü, həm hərbi, həm iqtisadi, həm siyasi gücü, Ermənistanın faktiki olaraq, əgər belə demək mümkündürsə, təklənməsi. Nə üçün təklənməsi? Ona görə ki, onlar haqsızdır. Onlar nahaq iş görürlər. Onlar hələ də Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyiblər. Halbuki, mən onlara birbaşa demişəm, özü də rəsmi qaydada. Əl çəkin ərazi iddialarından. Əl çəkməsəniz, o zaman biz də ərazi iddiası qaldıra bilərik Ermənistana qarşı”. Prezident həmçinin qeyd edib ki, Ermənistan hakimiyyəti Qarabağda yaşayan ermənilərə öz təsir imkanlarını itirir. Bu, həqiqətdir. Əksinə, Azərbaycan hakimiyyəti öz təsir imkanlarını artırır. Bu, reallıqdır”.

**“Qisas” əməliyyatı Ermənistana bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz”**

**Dövlət başçısı deyib ki, ”Qisas” əməliyyatı Ermənistana bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz:** ”Qisas” əməliyyatı Ermənistana bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz. Nə kiminsə bəyanatı, nə kiminsə açıqlaması, nə də hansısa telefon zəngi. Heç nə və heç kim. Bunu Azərbaycan xalqı yaxşı bilir. İkinci Qarabağ müharibəsi bunu göstərmişdir. Əminəm ki, qarşı tərəf də bunu bilir. Sadəcə olaraq, hərdən bir bunu unudur. Ona görə bu faciəvi hadisələr baş verir. Nə üçün bizim övladlarımız müharibədən sonra ölməlidir? Nə üçün ermənilər tərəfindən öldürülməlidir? Biz buna imkan verə bilmərik. Bir daha demək istəyirəm, əgər yenə də buna oxşar təxribat təkrarlanarsa, cavab daha sərt olacaq, daha da peşman olacaqlar, daha gur səslə imdad diləyəcəklər. Amma yenə də deyirəm, bizim niyyətimiz yeni müharibə başlamaq deyil. Kifayətdir. Biz istədiyimizə nail olmuşuq”. Prezident vurğulayıb ki, bizim istəyimiz erməni silahlı birləşmələrinin Qarabağı birdəfəlik tərk etmələridir. Bu, Ermənistanın öhdəliyidir. 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən imzalanmış kapitulyasiya aktında təsbit edilib.

**“Biz öz torpağımızda istənilən əməliyyatı istənilən zaman apara bilərik”**

**Ölkə rəhbəri qeyd edib ki, biz öz torpağımızda istənilən əməliyyatı istənilən zaman apara bilərik:** ”Sadəcə olaraq, ”Qisas” əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir, eyni zamanda, biz yeni müharibə istəmirik. Çünki İkinci Qarabağ müharibəsi gücümüzü göstərdi və biz istədiyimizə hərbi və ondan sonra hərbi-siyasi yollarla nail olduq. Digər arzularımıza da çatacağıq, zaman gələndə onlara da çatacağıq”. Bizim gündəliyimizdə həm taktiki, həm də strateji addımlarımızın təsbit edilməsinin reallıq olduğunu diqqətə çatdıran dövlət başçısı bildirib ki, Ermənistan da bilir ki, biz bilirik nəyi nə vaxt etmək lazımdır və nəyi deyiriksə, onu da edirik: ”Dəfələrlə Ermənistana xəbərdarlıq etmişdik ki, odla oynamasınlar, özlərini yaxşı aparsınlar, yeni reallıqları qəbul etsinlər və hərbi təxribatlara əl atmasınlar”.

**“Qisas” əməliyyatı cəza tədbiri idi”**

**Dövlət başçısı qeyd edib ki, Ermənistan tərəfi növbəti dəfə silahlı təxribata əl atdı və bu hərbi təxribat nəticəsində bir hərbçimiz şəhid oldu:** ”Allah ona rəhmət eləsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq hər kəs gördü və görməlidir ki, şəhidimizin qanı yerdə qalmadı. Biz dərhal ”Qisas” əməliyyatı keçirərək şəhidimizin qanını aldıq və qarşı tərəfi ciddi cəzalandırdıq. Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır. Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq. Heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz”.

**”Şərqi Zəngəzur və Qarabağda kənd təsərrüfatının inkişafı ən müasir əsaslar üzərində qurulmalıdır”**

**Dövlət başçısı vurğulayıb ki, Şərqi Zəngəzur və Qarabağda kənd təsərrüfatının inkişafı ən müasir əsaslar üzərində qurulmalıdır:** ”Kəlbəcər, Laçın, Zəngilan rayonlarında heyvandarlığın çox böyük perspektivləri var. Biz vaxt itirmədən artıq ikinci ildir ki, çobanları qoyun sürüləri ilə artıq oraya göndərmişik və bunun nəticəsini görürük. Arıçıları göndərmişik. Artıq Kəlbəcər, Laçın rayonlarında yol boyunca yüzlərlə arıçı öz təsərrüfatını qurub və bol məhsul götürür. Artıq biz bal ixracatçısına çevrilmişik” .Dövlət başçısı bildirib ki, Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı rayonlarında taxılçılıq, həmçinin üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri inkişaf etdirilməlidir: ”Dövlət öz tövsiyələrini verəcək, fermerlərə, oraya qayıdacaq vətəndaşlara həm dəstək göstərəcək, subsidiya verəcək, tövsiyə verəcək, onların yetişdirdikləri məhsulu bazarlara çıxarmaq üçün dəstək olacaq. Yenə də deyirəm, bu bölgədə - Şərqi Zəngəzur və Qarabağ bölgəsində kənd təsərrüfatının inkişafı, ən müasir əsaslar üzərində qurulmalıdır. Çünki biz işlərə faktiki olaraq sıfırdan başlayırıq, ona görə səhvə yol verə bilmərik. Vaxtilə Azərbaycanda aparılmış kənd təsərrüfatı islahatı zamanı buraxılan səhvlərə yol verə bilmərik. Hər şey düzgün, şəffaf olmalıdır və əminəm ki, bunun nəticəsində ən böyük məhsuldarlıq məhz işğaldan azad edilmiş torpaqlarda olacaq”.

**“Azad edilmiş ərazilərdə kənd təsərrüfatı üçün çox münbit təbii şərait var”**

**Prezident qeyd edib ki, azad edilmiş ərazilərdə kənd təsərrüfatı üçün çox münbit həm iqlim var:** ”Həm də təbii şərait var, həm maldarlıq, həm də bitkiçilik üçün. Biz əlbəttə ki, bundan maksimum dərəcədə səmərəli şəkildə istifadə etməliyik”. Dövlət başçısı qeyd edib ki, eyni zamanda, ərzaq təhlükəsizliyi ilə bağlı mövcud olan məsələlər bu günün məsələləri deyil: ”Sadəcə olaraq, Rusiya-Ukrayna müharibəsi nəticəsində bu məsələlər daha da kəskin dayanır. Ancaq prinsip etibarilə torpaqlarımız işğalçılardan azad olunandan sonra mən dərhal göstəriş verdim ki, azad edilmiş torpaqlarda biz vaxt itirmədən əkinbiçinlə məşğul olmalıyıq. Bu il 50 min hektarda taxıl əkilmişdir və artıq məhsul yığımı da sona çatmaq üzrədir. Mən hesab edirəm ki, azad edilmiş torpaqlarda biz taxılçılıq üçün ən azı 100 min hektarı dövriyyəyə buraxmalıyıq, əlbəttə ki, bütün müasir aqrotexniki tədbirlərin görülməsi, o cümlədən suvarma məsələlərinin düzgün təşkil edilməsi şərtilə. Xüsusilə nəzərə alsaq ki, bizim əsas çaylarımız da erməni işğalına məruz qalmışdır. Mənfur düşmən bizi öz suyumuzdan da məhrum etmişdir. Bildiyiniz kimi, Tərtər çayının suyundan biz faktiki olaraq istifadə edə bilmirdik. Həkəri çayın, Bazarçayın suyundan istifadə edə bilmirdik. Bu, azad edilmiş torpaqlarda əsas çaylardır. Amma o çayların sayı daha çoxdur”.

**“Azərbaycanda taxılla təminat sahəsində heç bir problem yoxdur”**

**Prezident vurğulayıb ki, Azərbaycanda taxılla təminat sahəsində heç bir problem yoxdur:** ”Bildiyiniz kimi, Rusiya-Ukrayna müharibəsi nəticəsində bir çox ölkələr fiziki cəhətdən öz əhalisini buğda ilə, taxılla təmin edə bilmirlər. Çünki taxılın əsas ixtracatçıları Rusiya və Ukrayna olduğu halda, indi müharibə əlbəttə ki, bu məsələdə çox böyük əngəllər törətmişdir. Ancaq Azərbaycanda bu sahədə heç bir problem yoxdur. Biz ənənəvi olaraq taxılı da, gübrəni də Rusiyadan alırıq. Rusiyalı tərəfdaşlarımızla əldə edilmiş razılaşmalar nəticəsində Azərbaycana istədiyimiz qədər həm gübrə, həm də taxıl ixrac ediləcək və edilir. Gübrəyə gəldikdə isə, bildiyiniz kimi, artıq biz özümüz də gübrə istehsalçısı olmuşuq və hətta karbamid gübrəsini ixrac edirik. Amma digər gübrələr Azərbaycana idxal edilir”.

**Prezident qeyd edib ki, bu amillər reallıqdır və biz real həyatda yaşayırıq:** ”Özümüzü bütün problemlərdən tam sığortalamaq üçün əməli işlər aparırıq və aparacağıq. Əminəm ki, növbəti illərdə həm bu gün mövcud olan əkin sahələrində daha bol məhsul götürmək üçün suvarma layihələri, düzgün aqrotexniki tədbirlərin görülməsi və digər tədbirlər, subsidiyalar nəticəsində biz məhsuldarlığı böyük dərəcədə artıra biləcəyik”.

**İsmayıl**

# Medianın İnkişafı Agentliyində onlayn media subyektlərinin rəhbərləri ilə görüş keçirilib



**Avqustun 12-də Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov 2022-ci ilin ikinci yarımilliyi üzrə maliyyə yardımı göstərilən onlayn media subyektlərinin rəhbərləri ilə görüşüb.**

Agentlikdən ”Şərq”ə verilən məlumata görə, Əhməd İsmayılov bildirib ki, maliyyə yardımının göstərilməsində əsas məqsəd onlayn media subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsidir və bu istiqamətdə qarşıya qoyulmuş hədəflərə çatmaq üçün müqavilə üzrə öhdəliklərin tam icra olunması, xüsusilə maliyyə yardımına dair hesabatlılığın vaxtında təmin edilməsi zəruridir.

Onlayn media subyektlərinin rəhbərləri tərəfindən ötən dövr ərzində maliyyə yardımının göstərilməsi nəticəsində bir çox veb-saytların texniki problemlərinin həll edildiyi, yeni rubrikaların yaradıldığı, bəzilərinin tamamilə yeni tərtibata keçdiyi, həmçinin müvafiq media subyektlərində fəaliyyət göstərən jurnalistlərin əmək münasibətlərinin rəsmiləşdirildiyi xüsusilə vurğulanıb.

Görüşdə bəhs olunan məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

**Aygün**

# Laçın şəhərində cəmi 120 erməni qalıb

## Onlar isə avqustun 25-dək qanunsuz məskunlaşdığı əraziləri tərk edəcəklər




**Ermənistan ilə Qarabağ İqtisadi Rayonunu birləşdirən Laçın dəhlizinə alternativ yolun Azərbaycan ərazisindəki inşaatı başa çatıb.**

”Qisas” əməliyyatından 1 gün sonra İrəvan da Laçın dəhlizinə alternativ yolun Ermənistan ərazisindən keçən hissəsinin tikintisinə başladığını elan etdi. 36 kilometrlik yolun cəmi 4 km-i Ermənistan ərazisinə düşsə də, qarşı tərəf prosesi yubatmağa çalışırdı.

**Millət vəkili Vüqar Bayramov bildirib ki, iki həftə ərzində qeyri-qanuni məskunlaşmış ermənilər Laçın şəhəri və Zabux kəndini tərk etməlidir:** ”1992-ci ildə Laçın şəhərinin 7 min 829 sakini olub. İşğaldan əvvəlki son siyahıya alınmaya əsasən, şəhərdə yaşayanların 99 faizi azərbaycanlılar idi. 2003-cü ildən etibarən isə əsasən Yaxın Şərqdə yaşayan erməni ailələrin şəhərdə məskunlaşmasına başlanılıb. Ermənistan statistik mənbələrinə əsasən, şəhərdə təxminən 500 erməni ailəsi və ya 2 min 190 erməni məskunlaşdırılıb. Növbəti 10 ildə qeyri-qanuni məskunlaşmış ermənilərin bir qismi sosial səbəblərdən şəhəri tərk edib. İkinci Qarabağ müharibəsindən sonra köç daha da sürətlənib. Hazırda şəhərdə cəmi 120 erməninin qaldığı güman edilir. Onlar isə avqustun 25-dək qanunsuz məskunlaşdığı əraziləri tərk edəcəklər. Laçın rayonunu işğal etməklə 50 min sakinimizi 30 il məcburi köçkün həyatı sürməyə məcbur edən işğalçı ölkə 2003-cü ildən sonra o ərazilərimizdə qeyri-qanuni məskunlaşan ermənilərin rayonu tərk etməsini ”faciə” kimi təqdim etməyə çalışır. Halbuki, prosesin növbəti mərhələsi Laçın daxil olmaqla ərazilərimizin işğalı nəticəsində dəymiş ziyana görə işğalçıdan beynəlxalq hüquq prinsiplərinə uyğun təzminatın tələb edilməsidir. Dəymiş ziyan isə milyard dollarla ifadə olunur”.

**İsmayıl**

# Salman Rüşdiyə Nyu-Yorkda bıçaqlı hücum olub



**Hindistan əsilli britaniyalı yazıçı Salman Rüşdi Nyu-Yorkda ”Chautauqua” İnstitutunda mühazirəsindən əvvəl hücuma məruz qalıb.**

”Report” ”Qazeta.ru”ya istinadən xəbər verir ki, bu barədə ”Bloomberg” məlumat yayıb.

Nəşrin məlumatına görə, naməlum şəxs səhnəyə çıxaraq Ruşdini çıxışına başlamamış döyməyə başlayıb. Hücum edən şəxs saxlanılıb. Ehtimal ki, onun əlində bıçaq olub.

S.Ruşdi Hindistanın Bombey (indiki Mumbay) şəhərində anadan olub. Yazıçının ”Şeytan ayələri” romanı müsəlmanların şiddətli etirazına səbəb olub. İranın dini lideri ayətullah Xomeyni fətvasında Ruşdini açıq şəkildə lənətləyərək onu, o cümlədən kitabın nəşrində iştirak edən bütün şəxsləri ölüm hökmünə məhkum edib və dünya müsəlmanlarını bunu yerinə yetirməyə çağırıb. Yazıçı 2016-cı ildə 2000-ci ildən yaşadığı ABŞ vətəndaşlığını alıb. Salman Rüşdi hücuma məruz qalıb.

# Paşinyan Türkiyə ilə münasibətləri normallaşdırmaqda maraqlıdır

Ancaq revanşist güclər, "Qarabağ klanı"na, Rusiya və digər kənar güclərə məxsus dairələr hər fürsətdə buna qarşı çıxırlar



**Türkiyə və Ermənistanın xüsusi nümayəndələri Serdar Kılıç və Ruben Rubinyan iki ölkə arasında münasibətlərin normallaşması çərçivəsində 500 dəfə telefonla danışıblar. Bu barədə "Hurriyet" qəzeti yazıb.**

Qəzet həminin, indiyə qədər xüsusi nümayəndələr arasında 4 dəfə əyani görüş keçirildiyini xatırladıb. Qeyd edək ki, növbəti görüşün sentyabr ayında Türkiyənin Ermənistanla həmsərhəd olan Qars vilayətində keçirilməsi gözlənilir. Türkiyə Xarici İşlər Nazirliyindən verilən məlumata görə, görüşdə iki ölkənin iqtisadiyyat, rabitə, telekommunikasiya və xarici işlər nazirliklərinin rəhbərləri də iştirak edəcək. Vurğulanır ki, Türkiyə tərəfi artıq Ermənistan-Türkiyə sərhədinin 180 kilometrlik hissəsinə baxış keçirib. Ermənistanla Türkiyə arasında Araz çayı üzərindən keçən körpünün texniki araşdırmaya məruz qalmasını zəruri hesab edib. Ani xarabalıqları, o cümlədən Axuryan çayı üzərindəki məşhur İpək Yolu körpüsünün təmirinin mümkünlüyü də araşdırılıb. Bu da iki ölkə arasında etimadın artırılması üçün mühüm addımdır. Onu da qeyd edək ki, Ermənistan tərəfi Türkiyə mediasının 5-ci görüşlə bağlı xəbərlərini təkzib edib. Ölkənin Xarici İşlər Nazirliyi Türkiyə ilə növbəti danışıqlar barədə hər hansı razılaşma olmadığını deyiblər.

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə "Şərq"ə bildirib ki, Nikol Paşinyan hökuməti Türkiyə ilə münasibətlərin normallaşmasında maraqlı görünür. Partiya rəhbərinin fikrincə, Paşinyan hakimiyyəti məsələlərə daha praqmatik və konstruktiv yanaşma sərgiləyir:** "İrəvan başa düşür ki, Türkiyə ilə münasibətlərin normallaşması Ermənistanın siyasi-iqtisadi vəziyyətinin düzəlməsinə səbəb olacaq mühüm amillərdən biridir. Ancaq Ermənistan revanşist güclər, "Qarabağ klanı"na, Rusiya və digər kənar güclərə məxsus dairələr də var. Məhz həmin qüvvələr Türkiyə-Ermənistan əlaqələrinin normala dönməsində qətiyyən maraqlı deyillər və hər fürsətdə buna qarşı çıxırlar. Onlar qondarma "soyqırım" və ərazi iddialarından vaz keçməyi "xəyanət" kimi dəyərləndirirlər. Hökuməti tənqid edərək, insanları etiraza səsləyirlər. Yəni erməni müxalifəti tərəfindən bu məsələyə ciddi maneçilik var. Buna baxmayaraq, indiki hakimiyyət Ankara ilə əlaqələri sıxlaşdırmaqda maraqlı və israrlıdır".

**A.Əlizadə vurğulayıb ki, Türkiyə prezidenti, xarici işlər naziri açıq şəkildə bəyan etdilər ki, Ermənistanla danışıqlar Azərbaycanla məsləhətləşmələr şəklində aparılır:** "İrəvanla bağlı atılacaq bütün addımlar, verilən qərarlar rəsmi Bakı ilə razılaşdırılır. Qardaş Türkiyə Azərbaycanın maraqlarına xususi önəm verir. Həm də tələb edirlər ki, Ermənistan Türkiyə ərazi iddialarından birdəfəlik əl çəksin, qondarma "soyqırım" iddiasından vaz keçsin. Ermənistan bunun üçün konstitusiyasına dəyişiklik etməlidir. Türkiyədə yüz mindən artıq erməni əsilli ölkə vətəndaşı yaşayır və fərqli sahələrdə vəzifələrdə təmsil olunurlar. Bir o qədər də Ermənistan vətəndaşı Türkiyədə çörək pulu qazanır, ailəsini saxlayır. İrəvan hökuməti anlayır ki, ermənilərin sosial rifahı Türkiyə və Azərbaycanla normal əməkdaşlıqdan və dinc qonşuluq münasibətlərindən asılıdır. Gec-tez bu, baş verəcək. Ermənistan elə bir coğrafi məkanda yerləşir ki, öz dövlətçiliyini qoruyub saxlamaq üçün mütləq mənada qonşularla əməkdaşlıq etməlidir. Bunun üçün "dənizdən-dənizə Ermənistan" xülyasından əl çəkmək lazımdır".

**İsmayıl Qocayev**

# Çox ləngiyirik...

Təcili Qafana yaxın ərazidə Türkiyənin konsulluğunu açmalıyıq



"İran işğal dövründə, müharibə zamanı və savaşdan sonra da Ermənistanın yanında olub"

**İran Ermənistanın Qafan şəhərinə konsul təyin edib. Bunu İran parlamentinin erməni əsilli deputatı Robert Beqleryan deyib. Onun sözlərinə görə, konsul artıq İrəvandadır və bir sıra görüşlər keçirib.**

Konsulluqla bağlı məlumat Ermənistanın ictimai dairələrində böyük əks-səda doğurub. İranın bölgədə konsulluq açmaq qərarı daha çox müharibədən sonrakı yeni reallıqlar, xüsusən də Zəngəzur ətrafında yaranmış yeni vəziyyət kontekstində qiymətləndirilir. Bu baxımdan, hətta Ermənistanda İranın qərarına "Tehran Zəngəzurla bağlı yanaşmalarını təsdiqləyir" kimi baxırlar. Tehran dəfələrlə regional dövlətlərin sərhədlərinin toxunulmazlığını bəyan edib, onun "qırmızı xətlərinin" olduğunu deyib. Bu bəyanatlar Ermənistanda çox vaxt Zəngəzurun "özünü müdafiə etmək" istəyinin ifadəsi kimi qəbul edilib. Şübhəsiz, praktikada İranın bununla bağlı qərarlarına "Zəngəzurun müdafiəsi" kimi yox, Zəngəzur ətrafında İranın maraqlarını müdafiə edən qərarlar kimi baxmaq olar.

**Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli "Şərq"ə deyib ki, İran uzun müddət, işğal dövründə, müharibə zamanı və savaşdan sonra da Ermənistanın yanında olub və bu və ya digər şəkildə Ermənistanı müdafiə edib. Partiya rəhbəri bildirib ki, İran olmayan nüfuzunu hər dəfə Ermənistan vasitəsi ilə bərpa etməyə çalışıb:** "Qafanda konsulluğun açılması bu yöndə növbəti addımlardan biridir. Düzdür, formal baxımdan istənilən dövlət başqa ölkənin ərazisində konsulluq aça bilər. Bu addım normal halda, yeni beynəlxalq hüquq baxımından digər ölkələri narahat etməməlidir. Ancaq bilmirik ki, İranın Zəngəzurdakı konsulluğu beynəlxalq hüquqlara uyğun fəaliyyət göstərəcək, yoxsa Tehranın maraqlarına xidmət göstərən mərkəz rolunu oynayacaq. Əlbəttə, bunun qarşısını almaq üçün İranla müharibə edəsi deyilik. Sadəcə olaraq Azərbaycan da öz işini görməlidir. Müharibədən bu yana müzakirə olunan məsələlərdən biri Şuşada Türkiyənin konsulluğunun açılmasıdır. Mən bunun tərəfdarıyam. Əfsuslar ki, hələ də reallaşmayıb. Belə məsələlərdə çox ləngiyirik".

**Q.Əlibəyli vurğulayıb ki, Şuşada, yaxud Qafana yaxın olan ərazilərimizdə Türkiyənin konsulluğunun açılması haqqında qərar qəbul olunmalıdır:** "Göstərməliyik ki, qardaş Türkiyənin bölgədəki nüfuzu, gücü İrandan qat-qat yüksəkdir. İran itirilmiş nüfuzunu Ermənistanla əməkdaşlıqda görür. Lakin biz qardaş ölkə, həqiqətən regional və qlobal gücə çevrilən Türkiyə ilə sıx əlaqədəyik. Bir-birimizi daim, hər şəraitdə müdafiə edirik. Cavab tədbirlərimiz bu yöndə olmalıdır. Ən əsası çalışmaq lazımdır ki, Türkiyə hərbi cəhətdən Azərbaycanda iştirak etsin. Əgər Rusiya hərbçiləri "sülhməramlı" adı altında ölkəmizdə yerləşdirilibsə, qardaş Türkiyə əsgərləri də burada olmalıdır. Şuşa Bəyannaməsinin müddəalarını real şəkildə həyata keçirməliyik. Elə etməliyik ki, İranın istənilən hərəkəti əhəmiyyətsiz addıma çevrilsin".

**İsmayıl Qocayev**

# Ermənilərə son şans...

Bundan sonra heç bir qüvvə Azərbaycanı antiterror əməliyyatlarından saxlaya bilməz

İsmayıl Qocayev



**"Azərbaycanın keçirdiyi "Qisas" antiterror əməliyyatı, Gorus-Xankəndi yoluna alternativ marşrutun tikintisinin yekunlaşması ermənilərin dalandakı hayqırtılarını çoxaldır".**

**Bu barədə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, bu, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində yaşayan ermənilərin ümid bağlayacağı yerlərin ağzının "qıfıllanması" ilə əlaqəlidir:** "İndi mülki ermənilər özlərinin taleyini Ermənistanın əllərinə buraxmaq istəmir. Üstəgəl, sülhməramlıların, daha dəqiqi, Rusiyanın saqqızını oğurlaya bilmək potensialından da məhrum olurlar. Azərbaycan dövləti 10 noyabr bəyanatının imzalanmasından sonra Rusiya sülhməramlılarının nəzarət zonasına daxil olan əraziləri hərbi infrastruktur, iqtisadi alətlər və kəşfiyyat imkanları ilə mühasirəyə alıb. "Qisas" əməliyyatı həmin imkanların uğurla sınaqdan keçirilməsi idi. Rusiya haqqında formalaşmış "Moskva imkan verməz ki, Azərbaycan əməliyyat keçirsin" təsəvvürlərini darmadağın etdi. İndi ermənilər daha aydın şəkildə dərk etməlidir ki, onlar ya Azərbaycan bayrağı altına keçib vətəndaşlıq üçün lazım olan kriteriyaları yerinə yetirməli olacaq, ya da ki, taleləri havadan asılı qalacaq. 10 noyabr bəyanatı ermənilərin Rusiyaya bəslədiyi inamı havaya sovurmamışdı. Ancaq "Qisas"dan sonra istər İrəvan, istərsə də, Qarabağdakı ermənilər anladılar ki, sülhməramlılar Azərbaycanın bundan sonrakı hər hansı antiterror əməliyyatlarını saxlaya biləcək qüvvə deyil".

**Ekspertə görə, Azərbaycanla Türkiyə birgə addımlar ataraq Rusiya sülhməramlılarının faktiki statusunu dəyişə bildi:** "Yəni Bakı-Ankara birliyi Rusiya qoşunlarının Azərbaycan ərazilərinə işğalçı kimi deyil, sülhyaratmanın bir missiyası olaraq gəlməsinə nail oldu. Təbii ki, Azərbaycan hər addımı nəzarətdə saxladı. Sülhməramlıların dəxlisiz və mandatdan kənar fəaliyyətlərini tənqid etdi. Rusiya hərbi-siyasi rəhbərliyi ilə mütəmadi əlaqələr saxlayaraq problemlərin aradan qalxması tələblərini səsləndirdi. Bundan sonra Qarabağdakı Rusiya hərbçiləri özlərinə çəki-düzən verməyə başladı. Hazırda onlar fəaliyyətlərini Azərbaycanın hüquqi çağırış və tələbləri əsasında qururlar. "Qisas"dan sonrakı panorama göstərdi ki, Azərbaycan həm Qərb, həm də Rusiya münasibətlərdə artan əhəmiyyəti fonunda antiterror əməliyyatları və ya digər hərbi əməliyyatlarda qətiyyətli olduğunu sübut etdi. Azərbaycanın "Qisas" əməliyyatı həm Rusiya, həm də Qərbin qırmızı xətlərini yoxladı. Azərbaycan növbəti əməliyyatların ayaq səslərini eşitdirir, hər hansı təxribat baş qaldırsa, Bakı yenidən silahları işə salacaq. Qərb insan hüquqları, Rusiya isə təhlükəsizlik məsələsini qabartsa da, bunlar çox xırda detallardır. Onlar Bakının gələcək addımlarının qarşısına keçməyəcəklər. Hazırda ən çox hərəkətlilik Azərbaycan-Ermənistan sərhədində müşahidə olunur və növbəti lokal əməliyyatların ünvanı bu region ola bilər".

Artıq Rusiya sülhməramlıları da fəaliyyətlərini Azərbaycanın hüquqi çağırış və tələbləri əsasında qururlar

# Azərbaycanda abortların sayı rekord həddə çatıb

Sosial şəbəkələrdə, xüsusilə "TikTok" platformasında çox mənasız, qeyri-mənəvi paylaşımlar uşaqların beyninə həkk olunur



"Ailə, Qadın, Uşaq Komitəsinin vəzifəsi bu mövzularda təbliğat aparmaqdır. Bölgələrdə bu haqda yeniyetmələr arasında seminarlar keçirilməlidir"

Çimnaz Şahlar

**Son bir ildə Azərbaycanda abort etdirən qadınların sayı rekord həddə çatıb. Yeniavaz.com-un açıqlanan sonuncu rəsmi məlumatlara istinadən apardığı hesablama göstərir ki, abort etdirən qadınların sayı 2020-ci illə müqayisədə ötən il 35 faiz və ya 12 158 nəfər artaraq 46 877-ə yüksəlib. Bu, indiyə kimi Azərbaycanda qeydə alınan ən yüksək göstərici olub.**

Məlumat üçün bildirək ki, abort etdirənlərin 2 428 nəfəri 15-19 yaşlılar olub. Bu yaşda abort etdirən qadınların sayı ötən bir il ərzində 87 faiz artıb. Məktəbyaşlı qızlar arasında (15-17 yaş) abort etdirənlərin sayı isə son bir ildə azalıb. Belə ki, əvvəlki ildə 29 məktəbyaşlı qız abort etdirmişdisə, ötən il bu göstərici 16 olub. Onu da bildirək ki, məktəbyaşlı qızlar arasında abortların sayı ən yüksək səviyyəyə 2010-cu ildə çatıb - 158 abort.

**Cəmiyyətin ciddi probleminə çevrilmiş artan abort halları barədə tibb və fəlsəfə elmləri doktoru, həkim Şəmsiyyə Namazlı öz fikirlərini "Şərq"lə bölüşüb. Abortların yüksək həddə çatmasının altında yatan səbəblərdən danışan həkim qeyd edib ki, bu problem hər zaman gündəm olub:** "Hətta bəzi inkişaf etmiş ölkələrdə dövlət abortun qadağan olunması ilə bağlı qərar verib. Bu, birbaşa ölkənin inkişafı ilə bağlı məsələdir. Bütün sahələrdə yeni davamçılar olmalıdır. Təbii ki, nəsil artımı anaların üzərinə düşür. Bir məsələni xatırlamaq istəyirəm. İkinci Dünya müharibəsindən Almaniya məğlub ölkə kimi ayrıldı, digər dövlətlər tərəfindən kapiltulyasiya olundu. Buna görə də müharibədən sonra böhran yaşandı, qiymətlər qalxdı, aclıq genişləndi. Lakin o vaxt Almaniyanın verdiyi qərara görə, yalnız uşaq qidalarının qiyməti artmayacaqdı. Çünki onlar bilirdi ki, Almaniyanın gələcəyi onların əlindədir. Azərbaycana gəlincə, bizdə heç bir qərar abortların qarşısını almır. Amma proses belə davam edərsə, təbii ki, dövlət kəskin qərar verməyə məcbur qalacaq".

Bu halların orta məktəb şagirdləri arasında həm tibbi, həm də mənəvi cəhətdən xoşagəlməz fəsadlara gətirib çıxaracağını deyən Ş.Namazlı hesab edir ki, problemin əmələ gəlmə səbəbi ailədən başlayır: "Düzgün istiqamət olmalı, təbliğat doğru şəkildə aparılmalıdır. Daha sonra isə burada əsas rolu məktəb oynayır. Onlara tədris olunan dərslərdən bu haqda məlumatlanmalıdırlar. Üçüncü önəmli amil isə mühitdir. Çünki uşaq da sosial varlıqdır və sosial həyat bu məsələdə rol oynayır. Bu üç faktor - valideyn, məktəb, cəmiyyət məktəblilər üçün çox böyük önəm daşıyır.

Bu gün internet əsrində yaşayırıq. Məktəblilər bu əsrin uşaqlarıdır. Sosial şəbəkələrdə, xüsusilə "TikTok" platformasında çox mənasız, qeyri-mənəvi paylaşımlar uşaqların beyninə həkk olunur. Hətta çox təəssüf ki, əksər məktəbə şagirdlər telefonla gəlirlər. Valideyn buna icazə verir, məktəblər də davam etdirir. Məhz bu faktor da uşaqlara təsir göstərir. Valideyn düşünməlidir ki, abortlar nəticəsində bugünkü məktəbli gələcək analıq hüququnu itirə bilər. Təbabət buna zəmanət vermir. Bu baxımdan bütün bunlar gələcək nəslin intellektual inkişafına zərər vuracaq.

Ailəli qadınlar isə iqtisadi durumu bəhanə gətirir. Deyirlər ki, iki-üç uşağım var, imkanım yoxdur və s. Həmçinin bəzi qadınlar qeyri-qanuni yolla dünyaya uşaq gətirmək istəmədiyindən bu yola əl atır. Ən xoşagəlməz hal isə cinsiyyətə görə edilən abortlardır.

Ailə, Qadın, Uşaq Komitəsinin vəzifəsi bu mövzularda təbliğat aparmaqdır. Bölgələrdə bu haqda yeniyetmələr arasında seminarlar keçirilməlidir. Eyni zamanda valideynlər də maariflənməlidir. Qeyd etmək lazımdır ki, televiziyaların da üzərinə böyük iş düşür. İntellektual verilişlərin sayı azlıq təşkil edir. Müzakirələr zamanı bu mövzuya da toxunulmalıdır.

Çünki televizor hər kəsin ailəsində var. Günümüzdə bu, həqiqətən də ciddi bir bəladır. Valideynlər çox gec ayılır. Sonda da yeganə yol kimi abort məsələsini seçirlər".

## Azərbaycan mətbuatı kifayət qədər peşəkardır

Seymur Verdizadə: "Çox yaxşı olar ki, ciddi media ilə sosial şəbəkə arasında sərhədlər dəqiq müəyyənləşdirilsin"



**"Mən sözün buxovlanmasının, fikrin, düşüncənin çərçivəyə salınmasının birmənalı əleyhinəyəm".**

*Bu sözləri "Şərq"ə açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin rəhbəri, "yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə deyib. Baş redaktor bildirib ki, Azərbaycan mətbuatı kifayət qədər peşəkardır və əksər jurnalist söz azadlığının sərhədini müəyyənləşdirməyə qadirdir:* "Amma sosial şəbəkələrdə bəzi hallarda söz azadlığından sui-istifadə halları olur. Bununla bağlı tədbirlər görülə bilər. İstənilən halda görülən tədbirlər jurnalistlərin yaradıcılıq imkanlarının məhdudlaşdırılmasına gətirib çıxarmamalıdır. Hər halda Baş Prokurorluq öz vəzifəsinin icrası ilə məşğuldur. Qanunlardan irəli gələn tələbləri icra etmək Prokurorluğun vəzifə borcudur. Çox yaxşı olar ki, ciddi media ilə sosial şəbəkə arasında sərhədlər dəqiq müəyyənləşdirilsin. Sosial şəbəkələrdəki neqativ hallar peşəkar mətbuatın ayağına yazılmamalıdır. Sui-istifadə hallarına yol verən bir neçə şəxsin bədnam əməlləri bütövlükdə Azərbaycan mətbuatının müsbət imicinə xələl gətirməməlidir".

**S.Verdizadə vurğulayıb ki, hər birimiz jurnalist olmazdan öncə Azərbaycan vətəndaşıyıq:** "Dövlətimizin, millətimizin maraqları bizim üçün peşə maraqlarından öndə gəlir. Bu mənada jurnalist həmkarlarımız milli maraqları peşə maraqlarına qurban verməməlidir. Peşəkar jurnalistlərin Azərbaycanın dövlət maraqlarını hər zaman üstün tutduğunun şahidi olmuşam. Öz təcrübəmdə də bunu dəfələrlə tətbiq etmişəm. Ölkə mətbuatı kifayət qədər peşəkar fəaliyyət göstərir. Mediamız zəngin inkişaf yolu keçib və xeyli püxtələşib. Milli maraqlarımızla peşə maraqlarını uzlaşdıra bilsək, Azərbaycan mətbuatı üçün heç bir problem yaranmayacaq".

**İsmayıl**

# "Sərhədsiz Reportyorlar" Azərbaycanın səsini eşitmək istəmir

## Natiq Məmmədli: "Bu təşkilatın qərəzli münasibəti təkcə Azərbaycana qarşı deyil, eyni zamanda, Türkiyə və bütün türk-müsəlman ölkələrinə qarşı yönəlib"




**Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən Azərbaycanda senzuranın ləğv edilməsindən 24 il keçir. Media ekspertləri bu qərarın tarixi əhəmiyyət daşıdığını və ölkədə ifadə azadlığının güclənməsinə ciddi təkan verdiyini bildirirlər. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli AzərTAc-a müsahibəsində dövlətin siyasi iradəsi nəticəsində Azərbaycanda söz və mətbuat azadlığının təmin olunduğunu, lakin bir çox qeyri-hökumət təşkilatları şəbəkələrinin bu müsbət tendensiyaya bir qayda olaraq qərəzli yanaşdığını söyləyib.**

*Müsahibəni təqdim edirik.*

**- Senzuranın ləğvindən sonra Azərbaycan mediasında nə kimi keyfiyyət dəyişiklikləri oldu və ölkədə ifadə azadlığının möhkəmlənməsinə necə təsir göstərdi?**

- 147 illik bir tarixi irsə istinad edən Azərbaycan mediası Cümhuriyyət dövründü çıxmaq şərti ilə çar və sovet imperiyalarının dözülməz senzuraları şəraitində fəaliyyət göstərməyə, öz maarifçilik missiyasını yerinə yetirməyə çalışıb. Ulu öndərimizin Fərmanı ilə 1998-ci il avqustun 6-da Nazirlər Kabineti nəzdində mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarənin ləğv edilməsi ilə uzun illər plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran əsas süni manee aradan qaldırılmış oldu. Hələ bu tarixi qərardan əvvəl 1995-ci ildə qəbul olunmuş Konstitusiyamıza görə, mediada senzuranın yolverilməzliyi dövlətin əsas prinsiplərindəndir. Əsas Qanunun 47-ci maddəsində göstərilir ki, hər kəsin fikir və söz azadlığı vardır, 50-ci maddə isə hər kəsin qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığını təsbit edir. Bir sözlə, senzuranın ləğvi bütövlükdə ictimai rəydə məzmun dəyişikliyi yaratdı. Mediaya yanaşmada dövlətin bu siyasi xəttinin fəlsəfəsi "Media haqqında" Qanunun da ruhunda əks olunub. Belə ki, Qanunun "Media azadlığı" adlı 5-ci maddəsinə əsasən Azərbaycan Respublikasında media azaddır. Media sahəsində dövlət senzurası, habelə bu məqsədlə dövlət orqanlarının (qurumlarının) və ya vəzifələrin yaradılması və maliyyələşdirilməsi qadağandır. Media sahəsində fəaliyyətin azadlığı hər kəsin qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır. Media sahəsində fəaliyyət yaradıcılıq və redaksiya müstəqilliyi əsasında həyata keçirilir. "Jurnalist fəaliyyətinin təminatı" adlı 6-cı maddəsinə görə isə jurnalistlər müstəqillik, öz mənafelərini təmsil edən təşkilatlarda birləşmək, peşə borclarını yerinə yetirərkən şəxsi toxunulmazlıq, şərəf və ləyaqətlərini müdafiə etmək hüquqlarına malikdirlər. Jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə etmək yolverilməzdir. Təəssüflər olsun ki, dünyada ifadə azadlığının vəziyyətini qiymətləndirmək kimi kifayət qədər geniş və ciddi missiyanı öz üzərinə götürdüyünü iddia edən xarici QHT-lər, həmçinin onların informasiya qaynağı funksiyasını yerinə yetirən ölkəmizin daxilində və xaricində yalnız neqativ axtarmağı özünə peşə seçmiş "ekspertlər" dövlətin atdığı addımların pozitiv tərəflərini görməzdən gəlirlər. Ölkəmizin informasiya mühitinə belə tendensiyalı münasibəti Ümumdünya Mətbuat Azadlığı İndeksi müəyyənləşdirmək kimi gurultulu missiya yerinə yetirən "Sərhədsiz Reportyorlar" adlı təşkilatın fəaliyyətində görə bilərik.

**- Sizin fikrinizcə, "Sərhədsiz Reportyorlar"ın Azərbaycana münasibətdə ənənə halını almış qərəzli münasibətinin kökündə nə dayanır?**

- İnsan hüquqları və söz azadlığı istiqamətində fəaliyyət göstərməsinə baxmayaraq, belə tipli QHT-lər ayrı-ayrı dövlətlərin siyasi maraqlarından çıxış edən feyk təşkilatlardır və bunu öz yanaşmaları ilə dəfələrlə sübut ediblər.

Bu təşkilatın qərəzli münasibəti təkcə Azərbaycana qarşı deyil, eyni zamanda, Türkiyə və bütün türk-müsəlman ölkələrinə qarşı yönəlib. Məsələn, ötən il iyunun 4-də Azərbaycanın iki jurnalisti öz peşə fəaliyyətini yerinə yetirərkən həyatını itirib. Söhbət Kəlbəcər rayonunda baş vermiş hadisədən gedir. Jurnalistlər Sirac və Məhərrəm qardaşımız şəhid olub. "Sərhədsiz Reportyorlar" hətta bu hadisəyə belə tendensiyalı yanaşıb. Onlar öz bəyanatlarında göstərib ki, Azərbaycan Respublikası ərazisində iki jurnalist qətlə yetirilib. Biz Medianın İnkişafı Agentliyi olaraq Azərbaycan jurnalistləri adından buna etiraz bəyanatı bildirdik ki, hadisənin səbəbini göstərmək lazımdır. Lakin "Sərhədsiz Reportyorlar" bizim səsimizi eşitmədi və ya bizim səsimizi eşitmək onlara sərf etmədi.

Digər tərəfdən, dəfələrlə qeyd etdiyimiz kimi, "Sərhədsiz Reportyorlar"ın Ümumdünya Mətbuat Azadlığı İndeksinin hazırlanması ilə bağlı irəli sürdüyü metodika ilə razılaşmır və bunu ədalətli hesab etmirik. Heç kimə açıqlanmayan və yalnız təşkilatın özünə məlum olan "123 prinsip" əsasında anonimliyi israrla qorunan "sehrli" ekspertlərin rəyi nəticəsində dünyada mətbuat azadlığının indeksini müəyyənləşdirmək nə dərəcədə real və inandırıcıdır?

**- "Sərhədsiz Reportyorlar"ın və bu qəbildən olan təşkilatların mövqeyində hər hansı dəyişiklik gözləmək olarmı?**

- Bütün bunlara baxmayaraq, biz dialoq tərəfdarıyıq və istəyirik ki, ölkəmiz haqqında rəy bildirilərkən rəsmi mövqeyimiz və Azərbaycan jurnalistlərinin münasibəti də nəzərə alınsın. Hələ də cavabsız qalmasına baxmayaraq Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi "Sərhədsiz Reportyorlar" təşkilatına məktub ünvanlayıb. Məktubda Təşkilatın 2022-ci il Dünya Mətbuat Azadlığı İndeksinə münasibət bildirilərək, demokratik cəmiyyətin mühüm komponentlərindən biri olan media və ifadə azadlığının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklərə uyğun olaraq tam təmin edildiyi, medianın inkişafının dövlətin prioritet fəaliyyət istiqaməti olduğu vurğulanıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı əsasında Medianın İnkişafı Agentliyinin yaradılması, media islahatlarının dərinləşdirilməsi, özəl sektoru media ilə əməkdaşlığa cəlb edən böyük layihələrin reallaşdırılması, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi qeyd edilərək, müvafiq beynəlxalq reytinqlər tərtib edilərkən bu müsbət təşəbbüslərin nəzərə alınmamasından təəssüf hissi keçirildiyi bildirilib. Qeyd olunub ki, 2021-ci ildə "Sərhədsiz Reportyorlar" Təşkilatının rəsmi veb-saytında xidməti vəzifələrini yerinə yetirərkən ermənilərin Kəlbəcər rayonunda basdırdıqları minaya düşərək həlak olan jurnalistlərlə bağlı məlumatın təhrif edilərək təqdim edilməsi, faciənin əsl səbəbi və mahiyyətinin açıqlanmaması, həmin məlumatın qərəzli olaraq Azərbaycanın əleyhinə istifadə edilməsinə imkan yaratmış və əsassız yanaşmaların formalaşması ilə nəticələnmişdir.

2022-ci il Dünya Mətbuat Azadlığı İndeksi ilə əlaqədar təşkilatın Azərbaycanın yeni reytinqini əsaslandırmaq üçün irəli sürdüyü arqumentlər tutarlı əsaslara söykənmir və müvafiq indeks Azərbaycanda media azadlığının vəziyyəti ilə bağlı obyektiv reallığı əks etdirmir. Məktubumuzda bir daha qeyd edilir ki, Medianın İnkişafı Agentliyi "Sərhədsiz Reportyorlar" təşkilatı, eləcə də media sahəsində fəaliyyət göstərən digər təşkilatlarla dialoqa hazırdır. Lakin bizim dialoq təşəbbüslərimiz cavabsız qalıb. Bu illər ərzində "Sərhədsiz Reportyorlar"ın siyasətini müəyyən edən fiqurlar və amillərin heç biri dəyişməyib. Yerli media ekspertlərimiz doğru qənaətə gəliblər ki, ənənəvi olaraq antiazərbaycan mövqeyi sərgiləyən şəxslər bu təşkilatın Azərbaycan üzrə təmsilçiləri və tərəfdaşlarıdır. Donorların qarşısında özünü lazımlı göstərmək istəyən bu kimi QHT-lər fikir, söz, ifadə və media azadlığının əsl mahiyyətini təhrif etməklə, bu azadlıqları müxtəlif subyektlərin mənafelərindən çıxış edərək spekulyasiya hədəfinə çevirirlər.

**- Azərbaycana qarşı tendensiyalı münasibət yalnız "Sərhədsiz Reportyorlar" üçün xarakterikdir? Eyni profilli digər QHT-lərin yanaşma tərzini necə qiymətləndirirsiniz?**

- "Freedom House" təşkilatının Avropa və Avrasiya proqramlarının direktoru Mark Behrendt iddia edir ki, jurnalist "bilərəkdən hökuməti qəzəbləndirirsə, biz onları qorumalıyıq və onlara fövqəladə maddi yardım göstərməliyik". Məhz bu yanaşma "Freedom House"un əsl mahiyyətinin göstəricisidir və ifadə azadlığı, ictimai maraqlardan çıxış etməli olan jurnalistika ilə heç bir əlaqəsi yoxdur. Dəfələrlə dövlət suverenliyi və ərazi bütövlüyümüzə hörmətsizlik göstərərək öz reytinq cədvəllərində Qarabağın dağlıq hissəsini "müstəqil ərazi" adlandıraraq "qismən azad ölkələr" kateqoriyasında göstərmiş "Freedom House" Azərbaycan ictimai rəyində öz etibarını çoxdan itirib. Və yaxud Jurnalistləri Müdafiə Komitəsinin Avropa və Mərkəzi Asiya üzrə koordinatoru Gülnoza Said açıq şəkildə xarici media qurumlarını Azərbaycanda keçirilən beynəlxalq tədbirləri işıqlandırmamağa səsləyirlər. Bu, müstəqil ölkəyə qarşı təhdidkar davranış deyilmi? Bu artıq qəbuledilməzdir ki, Jurnalistləri Müdafiə Komitəsi adlı qurum jurnalistlərin informasiya almaq, məlumat toplamaq hüququnu məhdudlaşdırmaq məqsədi ilə çağırış edir.

**- Mövcud şəraitdə Azərbaycan mediasının üzərinə hansı məsuliyyət düşür və çıxış yolunu nədə görürsünüz?**

- Azərbaycan mediası qlobal informasiya məkanının tərkib hissəsidir və dövlətin informasiya siyasəti də bu mühüm faktoru, habelə müasir çağırışları nəzərə alaraq formalaşdırılır. İstər Media Agentliyi çərçivəsində, istərsə də müxtəlif media subyektlərimiz səviyyəsində mövcud olan ikitərəfli və çoxtərəfli əməkdaşlıq modellərimiz kifayət qədər effektivdir. Bu il Milli Mətbuat Günündə Şuşa şəhərində keçirilən Beynəlxalq Media Forumda 20-yə yaxın ölkədən xarici media nümayəndələri və ekspertlər, beynəlxalq media təşkilatlarının təmsilçiləri qatıldılar və dünyanın müasir media mühitinin bütün qlobal trendləri müzakirə olundu. Ən mühüm tarixi əhəmiyyət daşıyan hadisə isə cənab Prezidentin Azərbaycan jurnalistlərinə müraciəti oldu. Dövlətimizin başçısının özündə mediaya yönəlik konseptual fikirlər ehtiva olunan müraciətində qlobal informasiya məkanında ölkəmizin yüksək beynəlxalq nüfuzuna xələl gətirmək, daxili həyatına təsir göstərmək cəhdlərini doğuran səbəblər və çıxış yolları barədə tövsiyələrini diqqətlə təhlil etdik. Azərbaycan Respublikası müstəqil siyasət yürüdən, müasir, güclü, beynəlxalq münasibətlər sistemində layiqli yeri olan dövlətə çevrildiyi üçün müxtəlif səviyyələrdə dezinformasiya savaşının hədəfinə çevrilmişik. Çıxış yolu isə Azərbaycan mediasının güclü olması, ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılmasında, milli maraqlarımızın müdafiəsində sayıqlığımızı və fəallığımızı artırmaqdır. Cənab Prezidentin sözlərinə istinad etsək, "vətənpərvərlik, yüksək milli şüur, ali məqsədlər uğrunda cəmiyyətimizin səfərbər olunmasına layiqli töhfələr vermiş Azərbaycan jurnalistləri hər zaman prinsipiallıq nümayiş etdirməli, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə Azərbaycanın dövlətçilik maraqlarını uca tutmalı, vətəndaşlarımızın dolğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətimizin tərəqqisi naminə var gücləri ilə çalışmalıdırlar".

# "Şuşaya ayrıca yanaşma, diqqət və hörmət var"

## Kərim Kərimli: "Bu yaxşıdır, amma bölgəni yaxşı tanıyanların da fikri öyrənilməlidi"



**Azərbaycanın mədəniyyət paytaxtı elan olunmuş Şuşa şəhəri haqqında bir sıra qadağalar, məhdudiyyətlər tətbiq edilib. Məsələn, Şuşanın təbii landşaftına təhlükə yaradan hər hansı fəaliyyətə icazə verilməyəcək. Eyni zamanda "Şuşa" adının da müvafiq qurumların rəsmi icazəsi olmadan istifadəsi qadağan olunub. Mədəniyyət paytaxtımızla bağlı daha bir qərar da imzalanıb.**

Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, Şuşada qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin siyahısı təqdim olunub. Açıqlanmış siyahıda bir çox fəaliyyət sahəsi - bitkiçilik və heyvandarlıq, ovçuluq, barama qurdunun yetişdirilməsi, balın və arı mumunun, mineral suların, tütün məmulatlarının və s. məhsulların istehsalı əksini tapıb. Qadağan olunmuş fəaliyyət sahələri arasında maşın və avadanlıqların istehsalı, daş kömür, xam neft və təbii qaz və metallurgiya kimi sənaye sektorları da var. Qeyd edək ki, məlum siyahı icti-maiyyətdə birmənalı qarşılanmayıb və sahibkarlıq fəaliyyəti ilə bağlı bəzi sahələrin hansı əsaslarla qadağan olunmasının aydın olmadığı vurğulanıb.

**Məsələylə bağlı "Şərq"ə fikirlərini bildirən yazıçı-publisist, jurnalist Kərim Kərimli deyib ki, sonuncu qərar da daxil olmaqla, Şuşa ilə bağlı qəbul edilən bütün qərarlarda nə qədər araşdırmalar və tədqiqatlar aparıldığı, yerli əhalinin fikrinin hansı səviyyədə öyrənildiyi barədə heç bir məlumat verilmir.** K.Kərimlinin sözlərinə görə, qərar qəbul edilərkən nələrin əsas götürülməsi barədə məlumatı yoxdur: "Arıçılığın Şuşada olub-olmaması barədə hansı tədqiqatlar aparılıb? Kimlərin fikri soruşulub, keçmiş təcrübə kimdən öyrənilib? Dəqiq bilirəm ki, həm Şuşa şəhərində, həm də kəndlərdə arıçılıq təsərrüfatları geniş yayılmışdı. Məsələn, görkəmli şairimiz, respublikanın Əməkdar müəllimi, Qarabağ müharibəsi veteranı Əyyub Şirlanlının şəhərin Cıdır düzünə gedən hissəsində böyük arıçılıq təsərrüfatı var idi. O cümlədən Şuşadan köçərək Azərbaycanın müxtəlif rayonlarında məskunlaşmış ailələr də həmin fəaliyyəti davam etdirirlər. Göyçay şəhərində Hüseynovlar ailəsinin böyük arıçılıq təsərrüfatı var. Arıları Şuşadan köçürmüşdülər. Mineral su məsələsinə gəlincə, onu da dəqiq bilirəm ki, Şuşadakı mineral sular ümumiyyətlə təbiətinə, xarakterinə, tərkibinə görə nadir sulardan sayılır. Bir neçə mənbə var idi. Şuşa şəhərindən 20 kilometr məsafədə, dağların qoynunda yerləşən Turşsu qəsəbəsində dünyanın ən gözəl turş suyu çıxırdı. Orada mineral su zavodu tikilirdi və istifadəyə verilməsinə çox az qalmışdı. Şuşa işğal olunmasaydı, turşsu şüşə butulkalarda müxtəlif bölgələrə satışa göndəriləcəkdi. Dağın o biri tərəfində, Şırlan kəndində də mineral su mənbələri var idi. Onlar bu gün də çağlayır. Həmin mənbədən paslanmayan borularla şəhərə su kəməri çəkmişdilər. Bir neçə yerdə mineral su qaleriyası tikmişdilər. Həmisı arxitekturası gözəl binalar idi. Orada həm istisu, həm turşsu, həm də adi mineral sular qaleriyası yaradılmışdı. Şəhər sakinləri ilə yanaşı, SSRİ-nin müxtəlif yerlərindən gələn qonaqlar o sulardan istifadə edirdilər".

**K.Kərimli vurğulayıb ki, istənilən qərarın verilməsi üçün əsaslar olmalıdır:** "Amma onunla bağlı bizdə məlumat yoxdur. Bəlkə Nazirlər Kabineti belə qərarlar qəbul etməkdə haqlıdır? Bilmirəm. Yadımdadır ki, Şuşa şəhərində uzun müddət heyvan saxlanılmasına qarşı mübarizə aparılmışdı. İri və xırdabuynuzlu heyvanların şəhər mərkəzində saxlanması çox ciddi problem idi. 1970-ci illərin əvvəllərində Şuşanın birinci katibi Qəşəm Aslanov qaramalın şəhərdən çıxarılması uğrunda ciddi mübarizə aparmışdı və buna nail olmuşdu. Buna baxmayaraq, Şuşa şəhərində yaşayan adamlar da ət yeməliydi. Ona görə də şəhərdən kənarda ətlik məntəqələri yaradılır və əhali ətlə təmin olunurdu. Qadağa siyahısında avtomobil zavodları, zərərli tullantılar, daş kömür istehsalı və başqa bəzi sahələr Şuşada ümumiyyətlə olmayıb. Şuşada avtomobil zavodunun açılması ağlagəlməzdir. Amma dərman bitkiləri təsərrüfatı yaratmaq olar. Şuşa ətrafındakı itburnu, giləmeyvə, böyürtkən, moruqlardan həm dərman bitkiləri istehsal etmək, həm də istehlak üçün təhvil vermək olar. Yəni Şuşada çoxlu biznes sahələri qurmaq mümkündür. Amma hələ yerli əhali Şuşaya köçürülməyib. Bizə verilən ən son məlumata görə, 2022-ci ilin noyabr ayında ilk köçürülmə baş tutacaq. Maraqlıdır, köç başlamayıbsa, indidən bu qadağalar kimin üçün tətbiq olunur? Şuşada yerli əhali yoxdursa, orada sahibkarlıqla kim məşğul olur ki, onlara qadağa qoyulur? Belə çıxır ki, yerli əhali olmasa da, kimlərsə Şuşada sahibkarlıq işi görə bilər. Bu, yanlış addımdır".

Kərim Kərimli diqqətə çatdırıb ki, Şuşanın ayrıca statusu var. Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır. Gələn il də türk dünyasının mədəniyyət paytaxtı olacaq: "Şuşada mədəniyyətin, muzeyçiliyin, turizmin inkişafı nəzərdə tutulur. Şuşa üzrə ələhiddəlik həm də onda görünür ki, Prezidentin Şuşa üzrə ayrıca nümayəndəliyi var. Şuşaya ayrıca yanaşma, diqqət və hörmət var. Bu, yaxşıdır. Amma Şuşada mədəniyyətlə bağlı keçiriləcək tədbirlər yerli əhalinin iştirakı ilə olmalıdır. Məsələn, Şuşada çayxanada əyləşirəm və çay gətirən oğlandan haralı olduğunu soruşuram. O da Şuşaya 400 kilometrlik məsafədə yerləşən bir məntəqədən olduğunu deyir. Ancaq mən Şuşaya bələt alıb gedirəm. Bu məsələlər mütləq tənzimlənməlidir. Bölgəni çox yaxşı bilən adamlar orada işə cəlb olunmalıdır. Məhz həmin adamlar düzgün qərarların qəbul olunmasına müsbət impuls verə bilərlər. Məsələn, bir var hansısa binanı sökəndən sonra duyuq düşəsən ki, ora Süleyman Sani Axundovun evimiş. Biri də var evi uçurtmamış bölgəni yaxşı tanıyan adamdan soruşasan, maraqlanasan. O da sənə izah edər. Söhbət bundan gedir. Sonradan oxuyan, internetden, vikipediyadan öyrənən adamla bölgəni əvvəlcədən və daha dərindən tanıyan, bilən adam eyni olmur axı. Prosesə həmin adamların cəlb olunması daha məqsədəuyğun olardı".

**İsmayıl Qocayev**

# "Qisas" sonuncu xəbərdarlıqdır

## Azərbaycan şərtlərinin 100 faiz yerinə yetirilməsinə nail olacaq



**Prezident İlham Əliyev dünən Basqal qəsəbəsində jurnalistlərə açıqlamasında "Qisas" antiterror əməliyyatından bəhs edib.**

Bir neçə saat ərzində davam edən "Qisas" əməliyyatının cəza tədbiri olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır: "Ermənistan tərəfi növbəti dəfə silahlı təxribata əl atdı və bu hərbi təxribat nəticəsində bir hərbçimiz şəhid oldu. Allah ona rəhmət eləsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq hər kəs gördü və görməlidir ki, şəhidimizin qanı yerdə qalmadı. Biz dərhal "Qisas" əməliyyatı keçirərək şəhidimizin qanını aldıq və qarşı tərəfi ciddi cəzalandırdıq. Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq. Heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz".

**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi Tural İsmayılov apardan antiterror əməliyyatı haqqında "Şərq"ə danışıb. O qeyd edib ki, Ermənistan tərəfi 10 Noyabr bəyanatının müddəalarına tam olaraq əməl etmir:**

"Bu bəyanatın 3-cü tərəfi olan Rusiya bununla bağlı Ermənistana ciddi təzyiq göstərmir. Nəticədə Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri pozmaqla məşğul olur.

"Qisas" əməliyyatına qədər Ermənistanın dəfələrlə cəbhədəki vəziyyəti gərginləşdirməyə cəhd etdiyini hər birimiz bilirik. Hətta bir hərbi qulluqçumuz da bu səbəbdən şəhid oldu. Məhz bundan sonra Azərbaycan "Qisas" əməliyyatını həyata keçirdi. Düşmən bir daha layiq olduğu cavabı aldı. Prezident dəfələrlə vurğulayıb ki, Ermənistan imzaladığı bəyanatın şərtlərinə əməl etməlidir.

Bu bəyanatda Azərbaycan qalib tərəf kimi bəzi şərtlər diktə edib.

Həmin şərtlər də regionun böyük gücləri olan Türkiyə və Rusiya tərəfindən dəstəklənib. Ümumiliklə, Azərbaycan bəlkə də yeganə ölkədir ki, işğala məruz qalan torpaqlarını özünün gücü ilə azad etsə də, regionda gərginliyi istəmir, sülhün mümkünlüyündən danışır.

Türkiyə-Ermənistan münasibətlərin normallaşdırması siyasəti də, Azərbaycan tərəfi ilə razılaşdırılaraq həyata keçirilib. Amma Ermənistanı qızışdıran xarici havadarları var. Xüsusilə, xaricdəki erməni lobbisinin təsir etdiyi müxtəlif imperialist siyasətçilər bu ölkəni qızışdıraraq təxribatlar törətməsinə səbəb yaradır.

Amma bir daha qeyd edirəm ki, zorla da olsa, Azərbaycan öz tələb etdiyi şərtlərin 100 faiz yerinə yetirilməsinə nail olacaq. Cənab Prezident də bu gün vurğuladı ki, provokasiyalar davam edərsə, analoji antiterror əməliyyatları həyata keçəcək".

**Çimnaz Şahlar**

# “Qonşu ölkə Azərbaycanı içindən dağıtmağa çalışır"

## Fazil Mustafa: “Cəhalət, ekstremizm ölkədə ermənidən, rusun imperiya maraqlarından daha böyük təhlükədir”



“100-200 il əvvələ baxsaq, görərik ki, o əsrdəki ziyalıların cəsarətinin bir faizi bugünkü Azərbaycan ziyalılarında yoxdur”

**Azərbaycan Baş Prokurorluğu dini ekstremist fəaliyyətlə mübarizə ilə bağlı videoçarx hazırlayıb. Qurumun Mətbuat xidməti tərəfindən hazırlanmış videoda qeyd olunub ki, dini inamın hər hansı tənqidi yanaşmanı istisna edən və dini normalara kor-koranə riayət etmə ilə müşayiət edilən ifrat dərəcəsi olan dini fanatizm - dini ekstremizmin ideoloji əsaslarını təşkil edir:**

”Dini radikalizm - hər hansı dini etiqad çərçivəsində ifrat dini baxışlara bağlılığı ifadə edən, həmin dini baxışların müstəsnalığının təsbit edilməsində barışmaz mövqe nümayiş etdirən və yayılmasında aqressiv üsul və vasitələrdən istifadə edilməsi ilə səciyyələnən davranışdır. Dini ekstremist fəaliyyətdə iştirak edən şəxslər Azərbaycan Respublikasının Cinayət, İnzibati Xətalar və Mülki məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar. Dini ekstremist fəaliyyətlə məşğul olan hüquqi şəxslər ləğv edilir və onların fəaliyyəti qadağan edilir.

Dini ekstremizmə qarşı mübarizənin həyata keçirilməsində qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının Baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar həyata keçirirlər”.

**Baş Prokurorluğun dini ekstremist mübarizə ilə bağlı atdığı addımı ”Şərq”ə şərh edən millət vəkili Fazil Mustafa bildirib ki, burada söhbət Azərbaycan dövlətinin varlığından gedir:** ”Dövlətimizin varlığını qarşımızda duran erməni məhv edə bilməz. Çünki biz birləşərək ermənini məhv etmə gücünə sahib olan millətik. Amma içimizdən Azərbaycan dövlətinin ”yıpranmasına” şərait yaradan yanlış siyasətin qurbanlarıyıq. Buna yol verməməliyik. Azərbaycan dünyəvi dövlətdir. Dövlətin postlarında oturan, lakin qaçıb gizlənən, dövlət üçün təhlükə yarada biləcək məsələlərə müdaxilə etməyi özünə borc bilməyən ünsürlərə diqqət etmək lazımdır.

Bu işi təkcə polisin, prokurorluğun mübarizəsi ilə aparmaq olmaz. Ziyalılar, dövlət məmurları, bu işə mənsub olan şəxslər hardadır? Bu açıqlamanı əslində prokurorluq orqanları verməməlidir, amma onlar bunu etməyə məcbur qalıb. Digərləri hansısa təlimatla, yuxarıdan verilən göstərişlə iş görməyə çalışır. Amma bu Vətən hamınındır. Sonra ağır günlərdə hamı mərsiyə, ağı deməklə məşğul olacaq, Vətən haqqında kədərli şeir yazacaq”.

**Xüsusi xidmət orqanlarının fəaliyyətini təqdir edən deputat qeyd edib ki, onlar böyük işlər görürlər və məsələyə vaxtında müdaxilə edirlər:** ”Lakin bu təkcə ”dubinka” ilə həll olunası məsələ deyil. Ağıl, zəka, ideologiya və doğru siyasətlə həll olunmalı məsələdir. Bu siyasət ortada yoxdur. Bu gün cəmiyyət bilmir ki, dövlət adına ideologiyanı yönəldən insanlar nə proqram hazırlayırlar.

Halbuki, qonşu ölkə Azərbaycanı içindən dağıtmağa çalışır. Partiyaların fəallığı isə görünmür. Cəhalət, ekstremizm ölkədə ermənidən, rusun imperiya maraqlarından daha böyük təhlükədir. Bunu anlamaq üçün tarix dərsi keçməyə ehtiyac yoxdur.

100-200 il əvvələ baxsaq, görərik ki, o əsrdəki ziyalıların cəsarətinin bir faizi bugünkü Azərbaycan ziyalılarında yoxdur. M.F.Axundzadəni, Mirzə Cəlil Məmmədquluzadəni kim qoruyurdu? Onların arxasında dövlət belə yox idi. Amma onlar kişi kimi, ləyaqətlə mübarizə aparırdırlar. Onların sayəsində işıqlı dünyaya çıxdıq, dövlət qurduq. İndi bu dövləti cəhalət, ekstrimizm çökdürür. Amma çox adam bunu görməkdə çətinlik çəkir. Yalandan Azərbaycan bayrağı qaldırırlar.

Bəs qəlblərində hansı bayrağı qaldırıblar? Əsas budur. Buna görə də bu kimi məsələlərdə dövlət orqanlarına hərtərəfli dəstək vermək lazımdır və onların da bu sahədəki fəaliyyəti deklarasiya xarakteri daşımamalıdır. Daha ciddi, planlı, proqram xarakterli ideoloji iş bunu təqib etməlidir. Bu olmasa, Yaxın Şərq ölkələrindəki baş verənlər yaşanacaq.

O qaranlıq Şərqə qayıtmaq istəyiriksə, hamı sussun, laqeyd qalsın, mənasız, yüngül işlərlə məşğul olun, özünüzü söydürməyin. Bu, jurnalistə də, siyasətçiyə də, ziyalıya da, müəllimə də aiddir. Deyilənlərə əməl edilməsə, həmin Şərq ölkələrinə dönəcəyik”.

**Çimnaz Şahlar**



# Tələbələrin işi çətindir

## Avqust ayının sonlarında ucuz mənzil tapmaq mümkün olmayacaq

**Bu ilin iyul ayında Bakının daşınmaz əmlak bazarında qiymətlər iyun ayına nisbətən 2,74 faiz artıb, ötən ilin eyni dövrü ilə müqayisədə isə 0,52 faiz azalıb.**

Bu barədə ”Report”a ”MBA” konsaltinq və qiymətləndirmə şirkətinin baş direktoru Nüsrət İbrahimov bildirib.

Onun sözlərinə görə, mənzillərin kirayəsi bazarında iyul ayı ərzində 3,65 faiz, ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 2,23 faiz ucuzlaşma olub: ”Yay ayları olduğu üçün ötən ay da daşınmaz əmlak bazarında alıcılıq qabiliyyəti aşağı olub. Yaz ayları ilə müqayisədə alıcılıq qabiliyyəti təqribən 25-25 faiz azalıb. Bazarda əsas aktivlik payız aylarında olur. Qarşıdan gələn payız aylarında yəqin ki, bazarda aktivlik bərpa olunacaq”.

**Əmlak eksperti Elnur Fərzəliyev də “Şərq”ə açıqlamasında alqı-satqı bazarında hələlik durğunluq olduğunu deyib.** Onun sözlərinə görə, yay aylarında mənzil bazarında tənzimləmələr olur. Bu, insanların daha çox istirahətə getməsi ilə bağlıdır. Ötən il yay aylarında torpaq bazarı aktivləşmişdi. Bağ evlərinin alışı da artmışdı. Bu il isə hərtərəfli durğunluq yaşanır.

Ekspert ötən ay üçün kirayə mənzil bazarında tələbələrin çoxunun gedişi ilə əlaqəli müəyyən bir boşluq olduğunu bildirib: ”Amma başqa bir tərəfdən də ali təhsil ocaqlarına qəbul olan tələbələrin sayı çoxdur. Yəni qəbul olanların sayı artıq bəllidir. Onların valideynləri artıq əmlak bazarında icarəyə verilən mənzillərlə maraqlanırlar. Ucuz mənzillərin sayı məhdud saydadır. Avqust ayının sonlarında ucuz mənzil tapmaq mümkün olmayacaq. Mərkəzə yaxın ərazilərdə ucuz fərdi həyət evləri var idi ki, orada da tələbələr daha çox qalırdı. Həmin evlərin böyük hissəsi də artıq sökülüb. Artıq həm tələbələr, həm də digər vətəndaşlar məcburiyyətdən şəhər kənarında, Xırdalan, Abşeron ərazilərində icarəyə mənzil axtarırlar”.

**Şəymən**



# İsveç və Finlandiya NATO-nun qapıları arxasında qalacaq

## Türkiyənin şərtlərinə əməl olunmasa bu ölkələrin alyansa üzv olması müşkül məsələdir

**Günəş Mərd**

**NATO-nun Madriddə keçirilən sammitindən sonra Türkiyə, İsveç və Finlandiya nümayəndələrinin Şimal ölkələrinin alyansına üzvlük məsələsi ilə bağlı ilk görüşü avqustun 26-na planlaşdırılıb. Bu barədə Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu məlumat verib:**

”Hələ ki İsveç və Finlandiya tərəfindən NATO-ya üzvlüklə bağlı memorandumda təsbit olunmuş və şifahi olaraq söz verilmiş öhdəliklərin yerinə yetirildiyini görmürük. Bununla belə biz danışıqlara hazırıq. İsveç və Finlandiya nümayəndələri ilə ilk belə görüşün avqustun 26-da keçirilməsi planlaşdırılır”.

**Siyasi şərhçi Turab Rzayev məlum prosesi ”Şərq”ə şərh edib. O qeyd edib ki, bu məsələnin həlli yolunda artıq çox da böyük problem qalmayıb. Böyük ehtimalla hər iki ölkənin NATO-ya qəbul olunması prosesinə start veriləcək:** ”NATO-ya üzvlük çox qısa müddətdə baş vermədiyi üçün qəbul birbaşa deyil, mərhələli şəkildə həyata keçiriləcək. Hər iki ölkənin bu təşkilata qəbul olunma faizi yüksəkdir. Onların NATO-ya qəbul olunmasında əsas maneə artıq Türkiyə deyil. İndi rəsmi Ankara bu ölkələrlə müəyyən bir ortaq razılığa gəlib. Amma indi ABŞ-ın daxilində İsveç və Finlandiyanın NATO-ya daxil olmasını istəməyən müəyyən şəxslər var. Bundan başqa yaxın gələcəkdə Avropada da hansısa ölkə bu üzvlüyə qarşı ola bilər. Hazırda onların NATO-ya üzvlüyünə qarşı ciddi müqavimət göstərən bir dövlət yoxdur.

**Analitik Elçin Xalidbəyli isə diqqətə çatdırıb ki, İsveç və Finlandiyanın NATO-ya üzvlüyü ABŞ və Qərb üçün olduqca vacibdir və prinsipial məsələdir:** ”Hər iki dövlətin NATO-ya üzvlüyü Rusiyanın qərb sərhədlərinin bu hərbi-siyasi blok tərəfindən tamamilə blokadaya alınması anlamı daşıyır. Yəni NATO bu halda Rusiya sərhədlərində Qara dənizdən şimal qütbünə qədər hərbi bazalar yerləşdirməklə, mühasirə halqasını qapatmış olacaq. Təbii ki, Rusiya bundan olduqca narahatdır. Kreml İsveç və Finlandiyanın NATO üzvlüyünə aqressiv reaksiya verir. Ancaq Rusiyanın buna əngəl törətmək imkanları və mexanizmləri mövcud deyil. Çünki Kreml Rusiyanın beynəlxalq sanksiyaların altında əzildiyi indiki situasiyada Ukraynanın NATO-ya üzvlüyünə qarşı verdiyi reaksiyanı təkrarlayıb, İsveç və Finlandiyaya hərbi müdaxilə edəcək durumdan çox uzaqdır. Ona görə də hazırda İsveç və Finlandiyanın NATO üzvlüyü qarşısında yalnız bir həlledici əngəl var. Yəni indi yalnız Türkiyə bu ölkələri NATO-nun taybatay açılmış qapıları arxasında saxlamaq imkanındadır. Ancaq rəsmi Ankara İsveç və Finlandiyanın NATO-ya üzvlüyünü Rusiyanın maraqlarına görə əngəlləmir. Bu məsələdə Türkiyənin milli təhlükəsizlik maraqları həlledici xarakter daşıyır”.

*Analitik vurğulayıb ki, İsveç və Finlandiya Türkiyəyə qarşı terrorçu qruplaşmalara ”qucaq açmış” ölkələrdir. Ona görə də rəsmi Ankara Türkiyənin milli təhlükəsizlik maraqlarını təhdid edən terrorçu qruplaşmaları dəstəkləyən İsveç və Finlandiyanı NATO sıralarına buraxmaq niyyətində deyil:* ”Düzdür, NATO-nun Madrid sammitində Türkiyənin şərtlərini ifadə edən İsveç və Finlandiya ilə üçtərəfli anlaşma imzalandı. Bu iki ölkə öz ərazilərində terrorizmə qarşı mübarizə aparacaqları və rəsmi Ankaranın verdiyi siyahılarda yer alan terrorçuları Türkiyəyə təhvil verəcəyi barədə öhdəlik götürdü. Yalnız bundan sonra Türkiyə İsveç və Finlandiyanın NATO-ya üzvlüyünə imkan verən rəsmi sənədi imzaladı. Ancaq İsveç və Finlandiya həmin sənəd imzalandıqdan sonra Türkiyə ilə olan üçtərəfli anlaşmaya qətiyyən riayət etmədi. Rəsmi Ankaranın tələb etdiyi terrorçuları Türkiyəyə təhvil verməkdən imtina etdi. Terrorçu qruplaşmalara maliyyə dəstəyini əvvəlki kimi davam etdirdi. Ona görə də rəsmi Ankara İsveç və Finlandiyanın NATO-ya üzvlük məsələsində öz mövqeyindən qətiyyən uzaqlaşmayıb. Türkiyə üçtərəfli anlaşmalarda İsveç və Finlandiyanın üzərinə qoyulan öhdəliklər yerinə yetirilməyənə qədər bu iki ölkəni NATO-ya buraxmayacaq. Bu baxımdan, bu iki ölkənin NATO-ya üzvlüyünə razılıq verilməsi üçün ümumi sənəd imzalansa da, onların taleyi hələ də Türkiyədən birbaşa asılıdır. Çünki İsveç və Finlandiyanın NATO-ya qatılmasının reallaşması üçün bu barədə imzalanmış ümumi razılıq sənədinin Avroatlantika blokunun bütün üzvlərinin parlamentlərində ratifikasiya olunması vacibdir. Bu, baş verməyəcəyi və ya hər hansı üzv dövlət parlamentdə həmin sənədi təsdiqləməyə təqdirdə, İsveç və Finlandiya NATO-nun qapıları ağzında gözləməkdə davam edəcək”. Analitikin qənaətincə, rəsmi Ankara Türkiyənin tələbləri tam şəkildə yerinə yetirilməyəcəyi təqdirdə, İsveç və Finlandiyanın NATO-ya üzvlüyünə imkan verməyəcək: ”Türkiyənin tələbləri icra olunmazsa, İsveç və Finlandiya hələ uzun müddət rəsmi Ankara ilə nəticəsiz görüşlər keçirməli olacaq”.

# Bu il məktəbli forması məcburi olmayacaq

## 2023-2024-cü tədris ilində isə bütün şagirdlər üçün istisnasız vahid forma tətbiq ediləcək

**Şəymən Bayramova**




“Valideynlər narazı olmasın deyə nazirlik məktəbli formalarının rənginin və biçiminin dəyişdirilməsinə ən azı 10 il məhdudiyyət qoymalıdır”

**Yeni dərs ilinin başlanmasına təxminən bir aylıq müddət qalıb. Artıq valideynlər məktəbə gedəcək övladları üçün yeni məktəbli formaları almağa hazırlaşır.**

Əvvəlki illərdən fərqli olaraq isə bu il üçün yeni formaların satışı həyata keçiriləcək. Çünki hələ bir müddət əvvəl Nazirlər Kabineti yeni məktəbli formaları ilə bağlı qərar imzalayıb. Bu sənədin isə geyim formalarının şagirdlərin sağlamlığına xidmət edən qərar olduğu bildirilib.

**Bakı Tikiş Evinin (BTE) Satış şöbəsinin rəisi Etibar Əzimov ”Report”un sorğusuna cavab olaraq deyib ki, hazırda məktəbli formalarının satışa çıxarılması üçün işlər yekunlaşmaq üzrədir.**

Onun sözlərinə görə, məktəbli formaları avqustun 16-dan satışa çıxarılacaq. Qiymətlərə gəlincə, E.Əzimov qeyd edib ki, ötən illərlə müqayisədə qiymətlərdə fərq hiss olunacaq: ”Artıq valideynlər müraciət edir. Geyimləri Bakı Tikiş Evi ilə yanaşı paytaxtda fəaliyyət göstərən ”Bravo” supermarketlər şəbəkəsindən əldə etmək mümkün olacaq”.

Qeyd edək ki, Nazirlər Kabineti Azərbaycanda dövlət ümumi təhsil müəssisələrində təhsilalanların geyim formalarının təsvirlərini təsdiq edib. Qərar yeni tədris ilindən tətbiq ediləcək. Təhsil naziri Emin Əmrullayev isə bir müddət öncə keçirdiyi brifinqdə qeyd etmişdi ki, Azərbaycanda məktəblərdə şagirdlərin hər hansı bir forma geyinməsi ilə bağlı tələb yoxdur. Nazirlik yoxlamayacaq ki, niyə şagird forma geyinməyib. Nə də məktəb direktorunun haqqı yoxdur ki, forma tələb etsin. Məktəb qərar verdikdən sonra valideynlərin ona uyğun forma seçməsi məqsədəuyğundur. Bu səbəbdən valideynlər məktəbli forması alıb-almamaq barəsində bir qərar verə bilmirlər. Hazırda ölkədə övladına məktəb forması dəstini almağa gücü çatmayan ailələr var. Bu gün ölkədə qazancı az, maddi vəziyyəti aşağı olan yüzlərlə ailə var. Belə ailələr üçün yeni məktəbli forması almaq çətin olacaq. Vahid məktəbli formalarının qiyməti 70-80 manata qədər qalxır. Bu hal da təbii olaraq valideynləri narahat edir. Məktəblinin geyimi tək forma ilə bitmir axı. Ayaqqabı, çanta və digər ləvazimatlar da var. Bütün bunları nəzərə alıb dövlət müəssisələrində sərbəst geyimə üstünlük verilməsi daha məqsədəuyğundur.

**Sosioloq Lalə Mehralı isə ”Şərq”ə açıqlamasında məktəbli formalarının məcburi olacağını deyib:** ”Bu il üçün müəyyən güzəştlər nəzərdə tutulub. Cari tədris ilində şagirdlər məktəbə əvvəlki formaları ilə gedə bilərlər. 2023-2024-cü tədris ilində isə bütün şagirdlər üçün istisnasız vahid forma tətbiq ediləcək. Ən azından qərarda belə yazılıb. Sözün açığı, 4-5 rəngdə olan formanın hansı vahidliyindən söhbət gedir, onu başa düşə bilmədim. Qızlar üçün beş cür ətək-şalvar növü nəzərdə tutulub. Onu deyim qızlar üçün ətəklə paralel şalvar alternativini alqışlayıram. Bu, təqdirəlayiq haldır. Ancaq fərqli rəngdə, fərqli biçimdə ətək, köynək nümunələrinə nə ehtiyac var. Çox güman, yeni geyim hazırkı formalardan daha baha qiymətə satılacaq. Çünki kostyuma daxil olan predmetlər çoxdur. Əgər nəyisə dəyişmək istəyirlərsə, hazırda şagirdlərin istifadə etdiyi məktəbli formalarına müəyyən əlavələr edib vahid forma kimi təqdim etsələr daha məqsədəuyğun olardı. Ən azından valideynlər əlavə xərcə düşməzdilər. Azərbaycanda hər kəsin həyat standartları yüksək deyil axı!? Mövcud formanı almağa belə çətinlik çəkənlər var. Elə ailə var ki, övladına ikinci əl məktəbli forması alır. Qonşusunun formasını alıb övladına geyindirənlər var. Belə bir vəziyyətdə yeni forma satışa çıxarmaq gərəksizdir”.

Nazirin açıqlamasına diqqət çəkən sosioloqun sözlərinə görə, E.Əmrullayev sadəcə bu il üçün məktəbli formasının məcburi olmadığını nəzərə tutub. Dediyim kimi, 2023-cü ilin sentyabrında məktəbli forması bütün şagirdlər üçün məcburi olacaq: ”İnsanların maddi durumuna əhəmiyyət vermədən məktəbli formalarının yeni dizaynda olması barədə qəbul etdilər, heç olmasa, qiymətləri əvvəlki qaydada saxlayardılar. Amma bəri başdan verilən açıqlamalardan keyfiyyət və çeşid məsələsinin qabardılması onu göstərir ki, yeni formaların qiyməti xeyli baha olacaq”.

*L.Mehralı əlavə edib ki, yeni qərara əsasən məktəb direktorları pedaqoji şuranı toplayaraq 3 ildən bir məktəbli formalarının rəngini müzakirə etmək səlahiyyətinə sahib olacaq:* ”Nazirlik hər nə qədər məktəbli formasının rənginin Pedaqoji Şuralar tərəfindən müzakirəyə çıxarılması ilə rəngin dəyişdirilməsi arasında fərq olduğunu iddia etsə də, Azərbaycan reallığını hər birimiz yaxşı bilirik. Hansı məktəb direktoru onlara verilən bu fürsəti əldən verər?!

Direktorlarımız əlavə gəlir qazanmaq üçün mümkün olan bütün variantlara əl atır. Kim zəmanət verir ki, direktorlar hansısa tikiş sexi ilə razılığa gəlib üç ildən bir rəngi dəyişməyəcəklər. Hətta yaxşı gəlir gətirsə, bəzi məktəb direktorları şəxsi tikiş sexi açacaqlar. Buna nə Təhsil Nazirliyi, nə də təhsil şöbələri zəmanət verir. Hamımız bilirik ki, sui-istifadə halları daha da artacaq. Hesab edirəm ki, məktəblərin daxili nizamnamələri dəyişdirilməli və onlara verilən bu səlahiyyət ləğv edilməlidir. 3 ildən sonra formanın rəngi dəyişsə, valideynlər böyük uşağın formasını balacaya geyindirə bilməyəcək. Bu isə onların onsuz da çətin olan maddi vəziyyətini daha da ağırlaşdıracaq. Mütləq şəkildə nazirlik bu problemi aradan qaldırmalı və yeni məktəbli formalarının rənginin və biçiminin ən azı 10-15 il dəyişdirilməsinə məhdudiyyət qoymalıdır”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

# "Korrupsionerlərin həbsi vacibdir"

## Əliməmməd Nuriyev: “Nə qədər ki, insanlarımız korrupsiyanın oğurluq olduğunu dərk etməyiblər, biz bu kimi faktlarla çox qarşılaşacağıq”




**Ölkəmizdə əhalinin sosial rifahına kölgə salan korrupsiya və rüşvətxorluq kimi neqativ amillərə yol verən vəzifəli şəxslərə qarşı mübarizə istiqamətində kompleks və ardıcıl tədbirlər davam etdirilir. Azərbaycan Prezidentinin korrupsiya və rüşvət hallarına qarşı barışmaz mövqeyi son günlər bir neçə bölgədə həyata keçirilən xüsusi əməliyyat tədbirləri ilə bir daha özünü göstərmiş oldu.**

Bəzi rayonların icra başçıları, icra hakimiyyəti nümayəndələrinin həbsi, barələrində istintaq hərəkətlərinə başlanması deyilənlərə sübutdur. Həyata keçirilən anti-korrupsiya tədbirləri ictimaiyyət tərəfindən müsbət qarşılanır və dəstəklənir.

İndiyədək vəzifəli şəxslərdən bir çoxu, bir neçə rayonun icra başçıları korrupsiyaya yol verdiklərinə görə məsuliyyətə cəlb olunub. Əlbəttə, vəzifəli şəxsin korrupsiyaya bulaşması, vətəndaşların problemlərini həll etməməsi və ya rüşvət müqabilində həll etməyə cəhd göstərməsi vətəndaş inamını azaldan amildir. Dövlət başçısı da məhz buna görə korrupsiya ilə mübarizəni dövlətçiliyin vacib elementi kimi vurğulayır, bu işdə ictimaiyyətin aktiv olmasını, rastlaşılan korrupsiya halları ilə bağlı aidiyyəti orqanlara dərhal məlumat çatdırılmasını vətəndaşlara tövsiyə edir. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi bu dəfə Şəmkir rayonunda əməliyyat keçirib. Şəmkir Rayon İcra Hakimiyyəti (RİH) başçısının Çinarlı qəsəbəsi üzrə icra nümayəndəsi Elçin Abbasov saxlanılıb. Hazırda araşdırma aparılır. Baş Prokurorluğun Mətbuat Xidməti faktı təsdiqləyib. Bildirilib ki, araşdırmaların nəticəsi barədə əlavə məlumat veriləcək.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu ilin aprel ayında ”Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Sərəncam imzaladı. Sərəncamda qeyd edilirdi ki, Fəaliyyət Planının təsdiqi dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və elektronlaşdırılması, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsi məqsədi daşıyır.

Azərbaycanda korrupsiya və rüşvətxorluğa qarşı aparılan mübarizənin effektivliyinin təmin edilməsi şərtlərindən biri də bu mübarizədə hökumət-vətəndaş əməkdaşlığının təmin edilməsidir. Çünki təcrübə göstərir ki, cəmiyyətə xas problemlərin həllində birtərəfli yanaşma heç də hər zaman effektiv olmur. Təbii ki, bu kimi dərin tarixi köklərə, formalaşmış təcrübəyə və xüsusilə də maddi üstünlükləri təmin edə bilən əməllərə qarşı sadəcə administrativ üsullarla mübarizə aparılmasının son nəticəyə təsir imkanları az olur. Məhz bu səbəbdəndir ki, korrupsiya ilə mübarizədə vətəndaşlar da ən az dövlət qədər məsul olmalı, hökumət isə bu iştirakçılığa şərait yaratmalıdır. Diqqət çəkən həm də budur ki, Fəaliyyət Planının icrası sahəsində görülən işlər barədə ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmalıdır. Bu da onu göstərir ki, cənab Prezident indiyədək olduğu kimi bundan sonra da dövlət maraqlarının təminatında ictimaiyyətə güvənir, ictimaiyyətdən gələn mesajları diqqətə alır, qərarların qəbulunda ictimaiyyətin maraqlarını dövlət maraqlarından ayırmır. Əslində, cənab Prezidentin çıxışlarına, əhali ilə görüşləri zamanı səsləndirdiyi fikirləri xatırlasaq, dövlət başçısının ən dolğun informasiyaları məhz ictimaiyyətdən aldığını görərik. Prezident özü bunu dəfələrlə bəyan edib. Korrupsiyaya qarşı mübarizədə biz bunun şahidi oluruq. Korrupsioner məmurların ifşa olunmasında, şəxsi maraqlarını dövlət maraqlarından üstün tutanların əməllərinin üzə çıxarılmasında ictimaiyyətdən - vətəndaşlardan daxil olan şikayətlər əsas götürülür.

**”Konstitusiya” Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev ”Şərq”ə açıqlamasında vəzifəsindən sui-istifadə edənlərə qarşı sərt tədbirlərin həyata keçirilməsinin vacib olduğunu deyib:** ”Cənab Prezident istər hökumət nümayəndələri ilə keçirilən müşavirələrdə, istərsə də vətəndaşlarla görüşləri zamanı həmişə vurğulayır ki, vəzifə səlahiyyətlərindən sui-istifadə edənlərə heç bir güzəşt olmayacaq və onlar qanunla cəzalanacaqlar. Həbslər, vəzifədən kənarlaşdırmalar bir daha onu göstərdi ki, ölkədə siyasi iradə var.

Təəssüf ki, korrupsiya və rüşvətxorluqla mübarizə sahəsində əldə olunan nəticələr, xüsusilə ölkənin müxtəlif bölgələrində neqativ hallarda və qanunazidd əməllərdə, o cümlədən özbaşınalıq və mənimsəmədə şübhəli bilinən yerli icra hakimiyyəti orqanları nümayəndələrinin hüquq-mühafizə orqanları tərəfindən təqsirləndirilən şəxs qismində saxlanılması bir daha göstərdi ki, ölkə başçısının dəfələrlə məmurlara ünvanlanmış çağırışlarına əhəmiyyət verməyənlər var. Özünü xalqın xidmətçisi hesab etməyən məmurlar yaranmış imkandan hər vəchlə faydalanmağı, xalqın malını mənimsəməyi bütün ülvi prinsiplərdən və qanunçuluqdan üstün tuturlar. Bu şəxslər nəinki kiminsə haqqını mənimsəyir, onların bu kimi əməlləri həm də dövlətçiliyi təhdid altına alan ciddi təhlükədir”.

**Ə.Nuriyev bildirib ki, korrupsiyaya qarşı mübarizədə ictimai nəzarətin gücləndirilməsi ilə dövlət başçısının konkret tövsiyələri var:** ”Ölkəmizdə ictimai nəzarətin hüquqi əsasları və institutları mövcuddur. Sadəcə, bu sahədə fəallığın artırılması gərəkdir. Dövlət qurumları yanında yaradılan ictimai şuraların fəaliyyəti prosesin daha çevik aparılmasına kömək edə bilər. İctimai nəzarətsə mütəmadi, davamlı olmalıdır. Məsələn, hazırda Qarabağda gedən bərpa və quruculuq işlərində tender məsələlərinin nəzarətdə saxlanılmasında vətəndaşlar aktiv olmalıdırlar. Çünki bu, bizim hamımızın ümumi işimizdir. İqtisadi inkişafdan qaynaqlanan amillərlə əlaqədar korrupsiyaya qarşı mübarizə üsullarının da təkmilləşdirilməsi zərurəti yaranır. Vətəndaş müraciətləri əsasında prokurorluq orqanları, Korrupsiyaya qarşı Baş Mübarizə İdarəsi əməliyyatlar keçirir. Bu cür müraciətlər bütün sahələrə aid olmalıdır. Vətəndaş harada dövlət maraqlarının, ictimai maraqların zərbə altında qaldığını görürsə, əlində dəqiq informasiyalar varsa, əlaqədar orqanlara məlumat verməlidir. Bunu bizdən dövlətimiz tələb edir”.

*Ə.Nuriyevin sözlərinə görə, korrupsiyaya qarşı mübarizəni effektiv etmək üçün həm preventiv üsullardan istifadə etmək, önləyici tədbirlər, sistem dəyişiklikləri həyata keçirilməlidir, həm də korrupsionerlərin həbsi vacibdir. Biz hər dəfə ayrı-ayrı yüksək və ya aşağı vəzifəli məmurların həbsini görürük:* ”Lakin dünya təcrübəsi də göstərir ki, korrupsiyaya qarşı mübarizə sistemli və institutlaşmış formada aparıldıqda yüksək nəticələr əldə etmək mümkün olur. Sadəcə, inzibati tədbirlərlə kifayətlənmək olmaz. Ölkədə antikorrupsiya mədəniyyətini təkmilləşdirmək lazımdır. Nə qədər ki, insanlarımız korrupsiyanın oğurluq olduğunu dərk etməyiblər, biz bu kimi faktlarla çox qarşılaşacağıq. Yəni biz bu cür həbslərə ayrı-ayrı fərdlər yox, hadisələr və əməllər baxımından yanaşmalıyıq”.

*Fond prezidenti hesab edir ki, bir çox məmurlar yerli icra hakimiyyətləri haqqında əsasnamədə müəyyənləşdirilən hüquq və vəzifələrinin öhdəsindən gələ bilmirlər, məsuliyyətlərini itiriblər:* ”İnandırım sizi ki, həbs olunan şəxslər ölkəmizdə vəzifə səlahiyyətlərini aşan və rüşvət alan, vətəndaşların haqqını yeyən insanların yüzdən biridir”.

**Şəymən Bayramov**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Türk dünyasının ədəbiyyat cəfakeşi

## Sərhat bəy Qabaqlının 70 yaşı tamam olur



**Almaz Ülvi,**
**Filologiya elmləri doktoru**

**Gün gedəndə, Ay gələndə, gəl, oğlum!**
**Cahan yanar, sən güləndə, gül, oğlum!**
**Bir yol var ki, Haqq yoludur, tap, oğlum!**
**Yeri bil sən, göyü bil sən, bil, oğlum!**
**Tezcə böyü, tez boya çat, tez, oğlum!**
**Çaqqal gəzən Qarabağda gəz, oğlum!**
**Çörəyini ac olanla böl, oğlum!**
**Haram yemə, haqq uğruna öl, oğlum!**
**Vətənimə göz dikəni əz, oğlum1**
**Tarixini şərəfinlə yaz, oğlum!.**

Tam 40 il əvvəl yazılmış bu şeirin və ya el ağzı ilə desək, milli marşın müəllifi Sərhat bəy Qabaqlı (Serhad Kabaklı) 70 illiyini qeyd etmək üçün bir müddət əvvəl institutumuza - AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna dəvət etmişdik. Xoş gəlib, səfa gətirmişdi, öz evinə-ocağına gəlmişdi. ”Bil, oğlum” şeirinin ithaf edildiyi oğul Şükrü Orkun da gəlmişdi. Orkun bəy bu poetik-müraciəti təvazökarlıqla bütün türk övladlarına aid olduğunu dilə gətirib. Bu şeirdə türkün özünü dərki, özünə güvəni, özünü təsdiqi var. Bir babanın övladlara nəsihəti, məsləhəti, yol-iz bələdçiliyidir. Ərənlik tərbiyəsidir. Müəllifin qardaşı oğlu Əsəd bəy Qabaqlı bu şeirə coşqu dolu bir mahnı yazmış, illərdir dildə-ağızda dolaşır, sevildikcə sevilir, hər kəs özünə aid bilir.

Kimdir Sərhat bəy Qabaqlı? Əsli bəlli, səcərəsi məşhur olan ziyalı bir nəslin övladıdır. Elazığın, Sərhat bəyin dediyi kimi, əfsanəvi bir dağın üstündə bir qayaya dayanaraq tikilmiş Harputda, Saray Xatun məscidinin azançısı (müəzzini) Ömər əfəndinin ocağındandır. 1952-ci ildə dünyaya gələn Sərhat bəy Qabaqlı ali təhsilini əvvəl İstanbul Atatürk Maarif (Egitim) İnstitutunda, siyasi məsələlər üzündən daha sonra əmisi Əhməd Qabaqlının təkidli təsiri ilə Ərzurum Kazım Qarabəkir Maarif (Egitim) İnstitutuna dəyişdirərək orada tamamlamışdı. Beləcə, uzun illərdir ki, təhsillə, maarifçiliklə xalqının, millətinin xidmətindədir.

Sərhat bəy Qabaqlının lirik şeirləri ilə incilənmiş ”Əvvəl göyərçinləri vurdular” (1998) və ”Bil, oğlum” (2020) şeir kitabları çox yayılıb. Hərdən düşünürsən ki, niyə az şeir kitabı? Amma düşünürsən ki, az olsun, qiymətli olsun, yaddaqalan olsun, mirvaritək sözə düzülən nəğmələr olsun.

10 noyabr 2020-ci il tarixdə Qarabağ davamızın sevincini bizlərə belə yetirdi: ”Salam Dağlıq Qarabağa, Müjdə Tanrıdağına”. Şairin gözaydınlığı məhz belə olur: lakonik və poetik.

”Kimdir Sərhat bəy Qabaqlı” sualına cavabının digər tərəfi isə dərinliklərdə deyil, hər gün adına rast gəldiyimiz ”Türk Ədəbiyyatı Vəqfi” mühitində tanış ola bildik. Bütün türk dünyasına xidmət göstərən Vəqfin taleyi əslində Qabaqlıların taleyidir - ədəbiyyata, sözə, milli şüura, milli düşüncəyə, milli ruha sahib duran Qabaqlıların Vəqfi. Əhməd bəy Qabaqlının təsisatı ilə 1972-ci ildən nəşrə başlayan ”Türk ədəbiyyatı” dərgisinin əsasında 1978-ci ildə Türk Ədəbiyyatı Vəqfi fəaliyyətə başlayıb. Əhməd bəy Qabaqlı Sərhat bəyin əmisi, bəlkə belə deyək ki, himayəsində böyüyən, həyat yoluna çıraq olan şəxs olub.





Bu nəslin Qabaqlı soyadının bir neçə müxtəlif anlamı deyilir: ilk olaraq, hər zaman xeyirxahlıqda, zəhmətsevərlikdə, müdrikliklə qabaqda, öndə olduqlarına, ikincisi, Harput civarına ilk gələnin Məhmət Qabaqlı olduğu deyilir. Buradan da ilk gələn, qabaq gələn anlamı ortaya çıxır. Qabaqda gələnlər soyundan olan Əhməd Qabaqlı, bəli, irəlidə, ədəbiyyat sərkərdəsi kimi dayanaraq türk ədəbiyyatı dünyasına öz töhfəsini elmi, kitabları, qurduğu - təsis etdiyi dərgi və vəqf fəaliyyətində verdi. Elə bir vəqf qurdu ki, çırağının nuru Günəş işığı qədər çoxalaraq cəmi türk dünyasına yansıdı. Sərhat bəyin dediyi kimi, Əhməd Qabaqlının ”hocaların hocası” vəsfiylə Türk Ədəbiyyatı Cəmiyyəti və Türk Ədəbiyyatı Vəqfində yetişdirdiyi insanlar bu gün ədəbiyyatın təəssübündə dayanan kişilərdir. Adından göründüyü kimi, Vəqfin əsas işi, əsas konsepsiyası Ədəbiyyata xidmət göstərməkdən ibarətdir. Böyük alimlərin - Fuad Köprülü, İsmayıl Hikmət, Nihat Sami Banarlı, Əbdülbaqi Gölpınarlı, Əhməd Həmdi Tanpınar, Məhmət Kaplan kimi nəhəng ədəbiyyat insanlarının içində yetişən Əhməd Qabaqlı 4330 səhifəlik ”Türk ədəbiyyatı” tarixindən bəhs edən beşcildliyindən sonra bəlkə də türk ədəbiyyatının ciddi quruma - Vəqfə ehtiyac olduğunu dərk edib. ”Tanrı dağı qədər türk, Hira dağı qədər müsəlmanıq” şüarının Qüdsdə, Fələstində, Bosnada, Almatıda, Bakımızda görünməsi Əhməd Qabaqlı mirası, Əhməd Qabaqlı vəsiyyətidir. Bu gün həmin mirası, vəsiyyəti ləyaqətlə ellərdən-ellərə könül işığı ilə daşıyan Qabaqlılar nəslinin böyük ziyalısı Sərvət bəydir.

Sərhat bəyin əmisi haqqında xatirələri çox duyğulu, çox təsirli olduğu qədər də tərbiyəvidir. Əmisinin maddi və mənəvi dəstəyindən bəhs edən bu xatirələrin sonunda Əhməd Qabaqlı məktəbinin Sərhat bəy Qabaqlı kimi görkəmli nümayəndəsi ilə rastlaşırıq. Xüsusən onun tələbə cib xərcliyi haqda xatirələri çox təsirlidir. Çünki o yaşantılar hamımızın həyatında baş verib, hər kəsdə özəl olaraq.

1952-ci ildə Elazığda - Harpudda doğulan Sərhat bəy yazır ki, ”Türk dünyasının, Türkiyənin hər qarış torpağı əzizdir. Amma bu şəhərlərin içində birinin adı Elazığdır, yəni El-əziz” - ”Əziz el” anlamında. Məlum və məşhur, hətta artıq ənənəvi tarixi hadisəyə çevrilən ”Xəzər Şeir Axşamları”nın Elazığda keçirilməsi (pandemiya dövrünə qədər 25-i keçirilib) bu şəhərin əhalisinin şeir qəlbli, poeziya sevgili olması ilə bağlıdır. Elazığdakı bu şeir bayramına üç dəfə - ”Yunus Əmrə”, ”Yəhya Kamal Bayatlı” və ”Əlişir Nəvai” mövzulu Xəzər Şeir Axşamlarının ən əziz panelçisi olaraq dəvət edilmişəm: orada özüm şahidi oldum ki, bu şəhərin əhalisinin nə qədər sadə, səmimi, sözünə sahib, şeir ruhlu, könüllər sevindirən xarakterləri var. Bütün türk dünyasını ora dəvət edərdilər, tədbirdən sonra bir gününü bütünlüklə Elazığı - Harpud bölgəsini gəzdirərdilər, bir sözlə, ən yüksək səviyyədə qonaqlardılar. Hər kəsə müxtəlif hədiyyələrlə yanaşı bir Türkiyə bayrağı da təqdim edilərdi. Elazığın tanınmış ziyalısı, şair Hadi Onal bəy ”Xəzər Şeir Axşamları”nın bütün məclislərini özündə əks etdirən, tarixləşdirən əlyazmasını tanışlıq üçün mənə vermişdi. Həmin əlyazmanı axıra kimi oxuyandan sonra Azərbaycan türkcəsinə uyğunlaşdırdım və müəllifin izni ilə ”Dünəndən bu günə Beynəlxalq Xəzər Şeir Axşamları” adlı kitab olaraq nəşr etdim. Bu kitabda da göstərildiyi kimi, ”9.Beynəlxalq Xəzər Şeir Axşamları 27 - 28 sentyabr 2001 - ci ildə Elazığın alpərəni, müdrik insan olaraq tanınan Şeyxülmuharririm Əhməd Qabaqlının xatirəsinə keçirildi. Türkcəyə, Türkiyəyə və türk insanına eşqlə bağlı, elm sahibi, tədqiqatçı, yorulmadan çalışan, vəfalı, yardımsevər, mərhəmətli, haqlının və məzlumun yanında olan, xalqdan qopmayan həqiqi aydın olan Qabaqlı, qədirşünas, yeni layihələr meydana gətirmək qabiliyyətinə sahib bir insan idi. Qələmindən mənfəət üçün istifadə etməyən, cizgisini qoruyan, yeridiyi yoldan ayrılmayan, dünya malına artıq dəyər verməyən, bərəkətli bir fikir çeşməsi idi. Uzun illər fikrini və qələmini vətən, millət xeyrinə istifadə edən bir qəhrəman, bir məktəb adamı, şərəf abidəsi, millətə və tarixə dəyən bir şəxsiyyət idi. O, 8 fevral 2001 - ci ildə vəfat etmişdi. 9.Beynəlxalq Xəzər Şeir Axşamları da əvvəlkilər kimi möhtəşəm oldu. Atatürk Mədəniyyət Dil Tarix qurumu rəhbəri Prof.Dr.Sadiq Tural, Türk Ədəbiyyatı Vəqfi rəhbəri Sərvət Qabaqlı, Türk Ədəbiyyatı ümumi yayım redaktoru İsa Qocaqaplan, Yrd.Doç.Dr.Türklər Əroğlu ilə Prof.Dr.Berrin U.Yurdadoğun şeir söhbətləri, panellər, konfranslar bir - birini izlədi.

Xəzər Şeir Axşamlarının son XXIV məclisində Proqramın açılışını Türk Ədəbiyyatı Vəqfi rəhbəri və şair - yazar Sərhat Qabaqlı, ”Niyə ərənlər məclisi? Çünki şeir Allahın nəfəsidir. Kimə üfürərsə ondan çıxar. Ona şair deyilir, şair Allahın nəfəsini daşıyan biri olaraq mübarək bir insandır” ifadələrini dilə gətirərək şairi və şeiri izah etdi” (Hadi Önal). ”Dünəndən bu günə Beynəlxalq Xəzər Şeir Axşamları” kitabında da qeyd edildiyi kimi, ”Beynəlxalq Xəzər Şeir Axşamları”nın hər məclisində Qabaqlıların adının keçdiyinə şahid oluruq.

İllər öncə, 21 yaşında yazdığı ”Mərmər və insan” adlı şeirinə Nəcib bəy Fazildən aldığı tərifə diqqət edin: ”Ulan, mənim gələn il yazacağım şeiri məndən əvvəl yazmağa utanmadınmı?” - belə tərif, belə tənbeh olarmı? Bəli, ustadlardan gəncliyə güvən, inam belə aşılanıb. Müdriklər mühitində formalaşmaq, tərbiyə almaq gələcək həyatında öz təsirini hökmən göstərir.

Əhməd Qabaqlının qurduğu Türk Ədəbiyyatı Vəqfinə vəfatından sonra qardaşı oğlu Sərvət Qabaqlı, ondan sonra isə artıq beş ildir ki, rəhbərlik Sərhat bəyə etibar edilib. Sərhat bəy yazır ki, Türk Ədəbiyyatı Vəqfinə sədr seçiləndən sonra bir il bu kürsüdə otura bilmədim. Niyə? Əhməd Qabaqlı, Sərvət Qabaqlı, Niyazi Yıldırım Gənçosmanoğlu, Məhməd Qaplan, İsmail Gerçəksöz buradan keçib. Onların yanında tərbiyə almış bir xadim, tələbə kimi özümü bu kresloya layiq görmədim. Vəqfin sədrliyi o qədər də vacib görünməsə də, onların oturduğu kresloda oturmağın başqa mənası olduğu üçün təvazökar olmaq lazımdır”. Əslində bu, kübar bir ədəbdir.

Sərhat bəy Qabaqlı haqda qısaca olaraq şeir sənətinə xidmətindən, yəni şairliyindən, sonra onun elm-təhsil sahəsindəki təhsil və vəzifələrindən, daha sonra təşkilatçılıq - ədəbiyyat dünyasındakı təşkilatçı fəaliyyətindən söz açdım. Amma onun gördüyü işlərin sayı, ölçü-biçisi bir məruzəyə, bir məqaləyə, bir məclis söhbətinə sığası həcmdə deyil.

# Sosial şəbəkələrdə ayıq-sayıq olun!

## Gözəl bir qız profili ilə oğlanları "tora salırlar"

**Göyçay Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində əməliyyat keçirilib.**

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan "Şərq"ə verilən məlumata görə, keçirilən əməliyyat tədbiri nəticəsində şəhər sakini, əvvəllər də narkotiklərin satışı və saxlanmasına görə, ümumilikdə iki dəfə məhkum olunmuş Elvin Həsənov şübhəli şəxs qismində saxlanılıb. Onun yaşadığı ünvana baxış keçirilən zaman oradan külli miqdarda narkotik vasitə olan heroin aşkar edilib. E.Həsənov ifadəsində həmin narkotiki sosial şəbəkə vasitəsilə tanış olduğu əcnəbi narkotacirdən onlayn yolla aldığını bildirib. Faktla bağlı cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə Elvin Həsənov barəsində həbs-qətimkan tədbiri seçilib. Saxlanılan şəxsin digər hüquqazidd əməllərdə iştirakının olub-olmaması araşdırılır.

Narkomafiyaların internetin imkanlarından narkotik satışının təşkili üçün istifadəsi artıq acı reallıqdır. Bu haqda xəbərlərin intensivləşməsi ölkədə onlayn narkotik satışı, virtual narkoticarətin genişlənməsi haqda fikirlər söyləməyə əsas verir.

Sosial şəbəkələrin imkanlarından istifadə edən narkotacirlər müxtəlif şirnikləşdirici vasitələrlə öz qurbanlarını ələ alıb, çirkin məqsədlərini onların vasitəsilə reallaşdırırlar.



Narkotacirlər özlərini göstərmədən satış şəbəkəsini qurmağa nail olur

**Sosial şəbəkələrdə narkotik vasitələrin satışını əks etdirən məlumatların yayılmasına münasibət bildirən narkomaniya üzrə ekspert Emil Maqalov "Şərq"ə açıqlamasında narkotik vasitələri onlayn satan şəxslərin qız və ya şirkət adından istifadə etdiklərini deyib:** "Narkotik maddələrin onlayn satışı ilə məşğul olan hər hansı bir şəxs gözəl bir qız profili ilə oğlana yazır və tanış olub dostlaşırlar. Oğlanın isə nə profil sahibinin oğlan olmasından, nə də onunla tanış olmaq məqsədindən xəbəri yoxdur. Bir müddət sonra həmin "xanım" oğlandan xahiş edir ki, əlimdə bir az mal var, onu Azərbaycana və yaxud da Azərbaycandan filan ölkəyə keçirmək lazımdır. Bunun müqabilində müəyyən qədər vəsait də təklif edir. İşsiz-gücsüz, ehtiyac içində yaşayan insanlar da qeyri-ixtiyari razılaşır.

İnsanların sosial durumunun aşağı olmasından istifadə edən, psixoloji təsir altına tez düşən insanları dərhal ələ alan narkotacirlər özlərini göstərmədən satış şəbəkəsini qurmağa nail olur. Bu şəbəkələr "tora saldıqları" insanlara əvvəlcədən 400-500 manat ödəniş etməklə həm şirnikləndirir, həm də bu işin öhdəsindən gəlsələr daha çox qazanacaqlarına inandırır.

Narkotacirlər narkotik vasitələri müxtəlif yerlərdə, ağacların, kolların dibində gizlədirlər. Narkotik istifadəçiləri və narkokuryerlər də həmin yerə gedərək alacaqları maddəni əldə edirlər".

*Ekspert sosial şəbəkə istifadəçilərini ayıq-sayıq olmağa çağırıb. Onun sözlərinə görə, yeni tanış olduqları adamlardan bu cür qanunsuz təklif alan insanlar dərhal imtina etməli və həmin profili hüquq-mühafizə orqanlarına şikayət etməlidir:*

- Bu gün qazanacağınız 500 manat sabahı gün azadlığınızın məhdudlaşdırılmasına səbəb olacaq. Bu məhdudlaşdırma isə ən azı 7 ildən başlayır. 1000 manata görə ən azı 7 il həbs cəzası alıb, azadlıqdan məhrum olmağa dəyərmi!?

**Şəymən**



**Qənbər** balanın 4 yaşı tamam olması münasibəti ilə atası Elçin, anası Ülviyyə xanım, babaları İsmayıl, Əli, nənələri Sona, Hədiyyə xanım təbrik edirlər. Əziz, gözəl, sevimli Qənbərə cansağlığı, uzun ömür, gələcək həyatında daim uğur arzu edirlər. Bu təbrikə Elçinin iş yoldaşları da qoşulur.

# "Doğru xəbər olmayanda yalan xəbər yayılır"

## Zahir Əzəmət: "İnformasiya mənbələri mediaya nə qədər açıq olarsa, dezinformasiyalar da o qədər az olar"



**Son zamanlar sosial media şəbəkələrində çirkli informasiyaların, feyk xəbərlərin, şantaj və böhtanların yayılması geniş müzakirə mövzusuna çevrilib.** Hər kəs bu vəziyyətdən narahatdır. Amma nə etməli? İctimaiyyət və media nümayəndələri, dövlətin rəsmi strukturları belə vəziyyətin qarşısını almaq üçün hansı tədbirlər görməlidir. **Bəs, bu yalan xəbərlərin arxasında nə dayanır? Yalan məlumatların, feyk xəbərlərin yaranma səbəbini "Şərq"ə dəyərləndirən "Qaynarinfo.az" saytının baş redaktoru Zahir Əzəmət bildirib ki, dezinformasiya doğru xəbərin yoxluğundan yaranır:** "Bunun bir neçə səbəbləri ola bilər. Ümumi nəzəri olaq biz medianın peşəkarlıq səviyyəsinin artırılmasından söz aça bilərik.

Amma mən daha çox ilkin səbəbi dövlət qurumlarının və informasiya mənbələrinin məlumatları mediadan gizlətməsində görürəm. İnformasiya mənbələri mediaya nə qədər açıq olarsa, dezinformasiyalar da o qədər az olar.

Yaxud da doğru xəbəri mediaya sızdırmaqla yalan məlumatların qarşısını ala bilərik. Digər tərəfdən baxdıqda əvvəlki illər deyil ki, media fərqli qrupların əlində vasitəyə çevrilsin və onlar bir-biri ilə müharibə aparsınlar. Bu səpkidə də dezinformasiyalar yaransın. Çirkli informasiyanın yaranmasının ikinci səbəbi isə media savadlılığının artırılmasıdır ki, bu da ciddi məsələdir".

**Nihat**

# Azərbaycan neftinin qiyməti yenə də artdı

## İlham Şaban: "Rusiya-Ukrayna müharibəsinin neftin qiymətinin dəyişməsində böyük rolu var"

**Dünya bazarında "Azeri Light" (CIF) markalı neftin qiyməti artıb. Məlumata görə, Azərbaycan neftinin 1 barel qiyməti 3,21 ABŞ dolları və ya 3,3 faiz artaraq 99,76 dollar təşkil edib. Xatırladaq ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 2020-ci ilin aprel ayında minimal səviyyəyə düşərək 15,81 dollar olub, 2008-ci ilin iyulunda isə maksimum qiymətə - 149,66 dollara satılıb.**

Dünyada yanacaq xammalının qiymətinə təsir edən amillərin sürətlə dəyişdiyini deyən Neft Araşdırmalar Fondunun rəhbəri İlham Şaban "Şərq"ə bildirib ki, ümumiyyətlə, pandemiyadan sonra hansısa bir investisiya bankının, beynəlxalq maliyyə institutlarının, enerji mərkəzlərinin qısa proqnozlarının özünü praktikada doğrultduğuna rast gəlinməyib: "Vəziyyəti analiz etsək görərik ki, neftin qiyməti ay yarım öncə 125 dollar idi. Ötən həftə isə ən ucuz partiya 93 dollar ətrafında satıldı. Görürük ki, təxminən 30 dollar civarında eniş olub. Neftin qiyməti bundan sonra yenə də arta bilərmi? Niyə də yox? Tutalım ki, Rusiya Ukraynaya, Polşaya, yaxud Amerikanın hansısa bazasına iki nüvə zərbəsi endirdi. Burada 125 dollar artaraq 325-ə çata bilər. Çünki qazın qiymətinin 2 min dolları aşmasını adam yatsa yuxusunda belə görə bilməzdi. Adətən bu qiymət vəziyyətdən asılı olaraq 300-500 dollar arasında dəyişirdi".

Ekspert bildirib ki, Rusiya-Ukrayna müharibəsinin neftin qiymətinin dəyişməsində böyük rolu var: "Artıq Ukrayna ordusu Xerson vilayətini azad edib. Rus silahlıları isə Donbasda dayanıb. Bu hal



1994-cü ildən sonrakı Azərbaycan-Ermənistan münaqişəsi kimi ümumi nüansları dəyişməyən hərbi, siyasi vəziyyətə gətirib çıxarır. Təbii ki, siyası gərginlik növbəti aylara nəzərən kifayət qədər azalmış olur. Belə olan təqdirdə Səudiyyə Ərəbistanı, Liviya, İraq, Birləşmiş Ərəb Əmirlikləri, bazara 5 milyon barel əlavə neft çıxardı. Bununla da, Rusiyanın Qərb bazarında satdığı 3 milyon barel neft artıqlaması ilə əvəzləndi. Hər şey bu vəziyyətdən asılıdır".

**Nihat Müzəffər**

# Vüsalə oğlunun görüntüsünü paylaşdı

## Elə bildilər sevgilisidir



**Aparıcı Vüsalə Kərimova instaqramda yeganə övladı Ayxanın görüntüsünü paylaşıb.**

Xanım aparıcı gözünün ağı-qarası Ayxanın gecə saatlarında özünə kokteyl hazırladığı anın videosunu təqibçiləri ilə bölüşüb.

Onun bu paylaşımı sosial şəbəkə təqibçilərini də çaşbaş salıb. Videonun şərh bölümünə fikrini bildirən sosial şəbəkə istifadəçiləri arasında Ayxanın aparıcının sevgilisi olduğunu düşünənlərə də rast gəlinib.

# Xroniki xəstələr evdən çıxmasın

## İsti havalarda yağlı yeməklərdən uzaq durmaq lazımdır

**Bu gün havanın temperaturu 41 dərəcəyədək yüksələcək. Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Belə havalarda insanlar istinin təsirindən bir çox problemlərlə qarşılaşırlar.**



Çünki isti hava şəraiti insan bədənində maye və duzun azalması faktorunu meydana çıxarır. Bəzən çölə çıxarkən düzgün saat seçilmir. Nəticədə yüksək temperatur insanların səhhətində narahatlığa səbəb olur. Xüsusilə də, istinin vuracağı fəsadlar hər hansı xəstəliyi olan və meteohəssas şəxslərdən daha çox diqqət tələb edir. Həkimlər də əhalini kəskin isti havalarda ehtiyatlı olmağa çağırır.

**Həkim-terapevt Aygün Sayılova istidən qorunmaq üçün bir sıra tövsiyələrini "Şərq"ə bölüşüb. Onun sözlərinə görə, insanlar işlərini günün isti saatlarına saxlamalı deyillər:** "Günəş altında mütləq baş örtükləri taxmaq lazımdır. Açıq, günəşi qaytaran rəng geyimlərdən istifadə etsinlər. Təbii parçalı, kətan materiallı, rahat paltarlar geyinsinlər. Mümkün qədər çox maye tükətməyə çalışsınlar. Yağlı qidalardan uzaq olmaq gərəkdir.

Yüngül, sürətli həzm edilən yeməklərlə qidalansınlar. 12:00-17:00 arası günün ən pis, təhlükəli saatıdır. Ətrafımızda istinin təsirindən halı pisləşən insan gördükdə onu kölgəyə, hava çəkən yerə aparmalıyıq.

Sərin maye qəbul etmək, başına, qoltuqaltına soyuq su vurmaq lazımdır. Həmçinin məsələn, köynəyinin düyməsini açmaq kimi geyimlərini rahatlada bilərik ki, adama hava vursun.

Təzyiq düşərsə, sərin və duzlu ayran vermək mümkündür. Xroniki xəstəlikləri olan insanlara isə həmin gün evdə qalmaq məsləhət görülür".

**Sücayət Mehti**

# 1 milyondan çox istifadəçi "Nar" + dan yararlanır!




**İstifadəçi rahatlığını təmin edən "Nar+" tətbiqinin yüklənmə sayı 1 milyonu ötüb.**

Hər gün on minlərlə abunəçinin sorğularına qısa zamanda cavab tapdığı, hesab üzərində lazım olan əməliyyatları saniyələr içində həll etdiyi tətbiq artıq 3 ildir ki, müştəri təcrübəsinin daha da yaxşılaşdırılmasına xidmət edir. "Nar+" tətbiqi bir çox funksiyalarından əlavə, abunəçilərüçün rabitə xidmətlərinin şəffaflığını da təmin edir. Hər bir "Nar+" istifadəçisi müxtəlif abunə əməliyyatlarını rahatlıqla həyata keçirir və balansına tam nəzarət edir.Abunəçilər müxtəlif sorğuları ilə bağlı onlayn çat xidmətinə də müraciət edib suallarını ünvanlaya bilirlər.Tətbiqdən ən çox istifadə edənlər paytaxt Bakı ilə yanaşı Sumqayıt, Gəncə və Quba sakinləridir. Müştəriyönümlü yanaşması ilə seçilən mobil operator "Nar+"tətbiqinin 1 milyon yüklənməsi münasibətlə yay kampaniyasının simalarından olan Cəfər NəcəfovunInstagram səhifəsində sosial media istifadəçiləri üçün müsabiqə elan edir. Belə ki, müsabiqə paylaşımının şərh bölməsində tətbiqdə ən çox köməyinizə çatan funksiyanı qeyd etməklə dəyərli hədiyyələrdən birini qazana bilərsiniz.

# "Nar" YayFest "Könüllülük" düşərgəsindəiştiraketdi

**"Nar" Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılğı ilə Şamaxıda baş tutan və 250-yə yaxın Azərbaycan Könüllüsünün iştirak etdiyi "Yay Fest 2022" düşərgəsinə qatılıb.**

Artıq üçüncü dəfədir həyata keçirilən festivalın məqsədi dövlət gənclər siyasətinə uyğun olaraq gənclər üçün müxtəlif sahələrdə yaradılan geniş imkanların təşviqi, ölkəmizin müxtəlif bölgələrində yaşayan gənclərin sosiallaşması, onların müasir peşə və trendlər barədə məlumatlandırılmasından ibarətdir.

"Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov "Özəl sektorlarda könüllülük fəaliyyətinin dəstəklənməsi"mövzusunda panel görüşdə iştirak edib. Düşərgənin 4-cü günündə baş tutan interaktiv görüş çərçivəsində "Nar"ın AKTİ ilə əməkdaşlığına əsasən könüllülər üçün yaradılmış fürsətlər barədə ətraflı məlumat verilib, iştirakçıların təklif və sualları dinlənilib.




*Qeyd edək ki, gənclərin təhsil və kariyera inkişafını hər zaman dəstəkləyən"Nar" bir müddətdir ki, AKTİilə memorandum imzalayıb. Memoranduma əsasən, Azərbaycan könüllüləri arasında effektiv koordinasiyanın təmin edilməsi, əlaqələrin asanlaşdırılması məqsədilə, "Nar"ın xüsusi yaratdığı tarif əsasında könüllülər arasında mobil zənglər pulsuzdur.*

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2253

ŞƏRQ 13 avqust 2022-ci il № 143 (5665) (şənbə)




# Hamı ekran qarşısına

### Simpsonlar bu dəfə gələcəyi necə proqnozlaşdırdıqlarını açıqlayacaq

**Dünyanın ən məşhur cizgi filmlərindən olan "Simpsonlar" həm də ön görmələri ilə məşhurdur. "Simpsons" filminin prodüserlərindən Matt Selman, serialın gələcəyi necə proqnozlaşdırdığını yeni mövsümdə ortaya qoyacaqlarını bildirib.**

"Deadline"a verdiyi müsahibədə prodüser Matt Selman 34-cü sezonda yayımlanacaq bir bölümdə gələcəyi necə bu qədər dəqiq proqnozlaşdırdıqlarına dair məlumat veriləcəyini söyləyib.

"Simpsonlar"ın gələcəyi necə bildiyini izah edən çılğın bir konseptual epizod olacaq. Lakin ümumilikdə, cizgi filminin özü çılğın bir layihədir. "Simpsonlar" gələcəyi necə proqnozlaşdıra biləcəyinə dair izahat verəcək" - Selman deyib.

Sosial mediada "Simpsonlar"ın ən çox danışılan proqnozlar arasında Donald Trampın ABŞ prezidentliyinə namizədliyi və koronovirus epidemiyası yer alır.

**Turan**

# Məşhur model gözəllik sirrini söylədi

### "Mən ərimin qanını udmuşam"



**Məşhur model və aparıcı Haydi Klum gənc və gözəl qalmağını əri Tom Kaulitzə borclu olduğunu bildirib.**

Onlayn müsahibə verən Klum gənclik sirrini yumoristik bir dillə cavablandırıb.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, 49 yaşlı model "Mən ərimin cavan qanını udmuşam. Xortdan kimi" deyə bildirib.

Model bu yaxınlarda Avstriyada özündən 17 yaş kiçik əri ilə evliliyinin üçüncü ildönümünü qeyd edib.

"Vaxt keçir, amma mən artıq bir ömür keçdiyini hiss edirəm. Onu çox yaxşı tanıyıram. Biz çox yaxşı anlaşırıq. Hiss edirəm ki, nəhayət, doğru insanı tapmışam. Ümid edirəm ki, belə də qalacaq", - Klum deyib.

Cütlük iki ay nişanlı olduqdan sonra 2019-cu ilin avqustunda evlənib.

**Turan**

# Aleyna Tilki reklamdan 998 min manat qazandı



**Türkiyəli müğənni Aleyna Tilkinin bu il reklam çəkilişlərindən əldə etdiyi gəlir ortaya çıxıb.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, sənətçi ilk reklamından 2.5 milyon lirə, 2-ci və 3-cü çəkilişlərin hərəsindən isə 4 milyon lirə qazanıb. Müğənni ümumilikdə 10.5 milyon lirə (təxminən 998 min manat) qonorar əldə edib. A.Tilki qazandığı pulların isə yalnız daşınmaz əmlaka (torpaq) yatırır.

# Uşağın üzərindən yük maşını keçdi

### O, möcüzəvi şəkildə sağ qaldı



**Türkiyənin Batman şəhərində küçədə oynayan uşağın üzərindən yük maşını keçib.**

Oxu.az xəbər verir ki, beş yaşlı uşaq avtomobilin altına düşsə də, möcüzəvi şəkildə sağ qalıb.

Müşahidə kameralarına əks olunan görüntülərdə uşaq hərəkətdə olan maşının önünə atılır və yük avtomobili keçəndən sonra heç nə olmamış kimi ayağa qalxır.

# Qadının evlənmə təklifinə "yox" deyən kişi cərimələnəcək

### Bu barədə yerli İslam Ali Şurası qərar verib



**Çadın Manqalma subprefekturasında evlilik təklifindən imtina edən sakinlər "amçilini" adlanan cəriməni ödəməlidirlər.**

Oxu.az xəbər verir ki, bu barədə yerli İslam Ali Şurası qərar verib. Yeni qaydalardan birinə əsasən, qadın kişidən onunla evlənməyi xahiş edə bilər. Kişi razılaşarsa, 35 min Mərkəzi Afrika frankı (təxminən 93 manat), imtina edərsə 100 000 frank (265 manat) məbləğində sabit rüsum ödəməlidir. Əksinə, evlilik təklifindən qadın imtina edərsə, 15 min frank (39 manat) məbləğində cərimə ödəməlidir. Qəsdən imtina edən qadın 25 min frank (66 manat) məbləğində cərimə ödəyəcək.





# Yeganə qadın dəniz kapitanı

### 34 yaşlı Hatice Yeşiltaş böyük missiyasının qürurunu yaşayır

**Ailəsinin bələdçiliyi sayəsində Türkiyə Silahlı Qüvvələrinin (TSK) üzvü olmağa üstünlük verən Dəniz Kapitanı Hatice Yeşiltaş Kocaeli Kartepedəki Dəniz Hava Komandanlığının yeganə qadın pilotu olmanın qüruru ilə vəzifəsini yerinə yetirir.**

Hatice Yeşiltaş Dəniz Hava Komandanlığının ilk və yeganə "Seahawk SH-70" qadın pilotudur.

Ispartalı bir ailənin tək övladı olan Yeşiltaş 2011-ci ildə Dəniz Akademiyasını bitirdikdən sonra Dəniz Komandanlığının sevimli gəmilərindən olan "TCG Gelibolu"da silah elektronikası zabiti və atəşə nəzarət zabiti vəzifələrində çalışıb.

2014-cü ildə pilot təhsili üçün imtahanları və müsahibələri müvəffəqiyyətlə verən Yeşiltaş 8 ildir Dəniz Hava Komandanlığının "Seahawk" tipli helikopterdən istifadə edən yeganə qadın pilotu olaraq vəzifəsini yerinə yetirir.

351-ci Dəniz Helikopter Eskadrilya Komandanlığına rəhbərlik edən 34 yaşlı dəniz kapitanı Hatice Yeşiltaş ailəsinin uşaqlıqdan hərbçi olmaq istədiyini, gənc yaşlarından bu peşəyə maraq göstərdiyini bildirib.

Ailəsinin böyük dəstəyi ilə Dəniz Akademiyasını qazandığını ifadə edən Yeşiltaş, "Uşaqlıqdan bəri anamın dilindən başqa peşə eşitməmişəm. Anam "Əsgər olacaqsan, ölkən və millətin üçün çalışacaqsan... Təhsilimə də, vəzifəmə də bu yolda başlamışam" deyə bildirib.

Pilot təhsilində lazımi imtahan və müsahibələrdən keçdiyini və 2014-cü ildə Ordu Aviasiya Komandanlığında pilotluq təhsilinə başladığını qeyd edən Yeşiltaş, əvvəlcə yer dərsləri ilə təlimə başladıqlarını, daha sonra isə ilk uçuşu həyata keçirdiklərini ifadə edib. O, sözlərinə davam edir:

"Adam uyğunlaşma uçuşunda böyük həyəcan və qürur hissi keçirir. Dedim ki, bəli, bu mənim etməli olduğum peşədir. Əvvəla, birinci vəzifəmiz hərbi xidmətimizi yerinə yetirməkdir. O, qürur hissidir. Pilot kimi səmada hiss etdiyimiz azadlıq isə təsvirolunmaz bir hissdir.

Ailəm Ordu Aviasiya Məktəbinin Komandanlığında buraxılış mərasimimə gələndə onların gözlərindəki qüruru görmək mənim üçün böyük xoşbəxtlik mənbəyi oldu. Çətin bir təhsildir. Böyük fədakarlıq və böyük əmək tələb edir. Dediyim kimi, hərbi təlim keçdikdən sonra bu fədakarlıq və fədakarlıqdan sonra xoşbəxtlik, qürur hər şeydən önəmlidir. Bunun bizə verdiyi məmnunluq hissi, bayraq, vətən üçün çalışmaq qüruru sözlə ifadə olunmaz".

Dəniz Hava Komandanlığının ilk və yeganə "Seahawk SH-70" qadın pilotu olduğunu ifadə edən Yeşiltaş, "Məndən sonra gələcək nəsillərə nümunə olmaq üçün əlimdən gələni edirəm. Məşqlərimizdə solo uçuşlar keçirirdik. Mən gəmilərlə başladım və xidmətə getdim. Çox ölkələr gördüm, gəmilərimizlə bir çox dənizlərdə bayrağımızı dalğalandırdıq. Bunlar inanılmaz gözəl şeylərdir" deyə bildirir.

Tələbəlik illərindən bəri çox gərgin bir iş proqramı həyata keçirdiyini açıqlayan Yeşiltaş, "Əsas məqsədimiz təhlükəsiz uçmaq və tapşırığı müvəffəqiyyətlə yerinə yetirməkdir" əlavə edir.

Türk milləti olaraq qadın və kişilərin uşaqlıqdan vətən sevgisi, bayraq sevgisi ilə böyüdüklərini xatırladan Yeşiltaş, tarixdə və bu gün də vətənin qorunmasında qadınların xüsusi yeri olduğunu vurğulayıb.

Keçmişdə qadınların vətəninin müdafiəsi üçün





"Biz də buradayıq" sözlərini xatırladaraq sözünə davam edir: "Sabiha Gökçen ilk qadın döyüş pilotu kimi öncüllük etdi. Onun rəhbərliyi bizə nümunə oldu, inşallah bayrağı bizdən sonra gələnlərə çatdırarıq. Türk milləti olaraq bundan sonra da davam edəcəyik".

**Turan Can**



# Yerin altından səslər gəlir

### Zəlzələ ilə əlaqəsi yoxdur, artıq iki kənd qorxu içindədir



**Bu dəfə Türkiyənin Siirt bölgəsində yer altından gələn səslər narahatlıq yaradıb. İki həftə əvvəl Meydandərə kəndində başlayan hadisə indi Akyayla kəndinə keçib. Vətəndaşlar səsdən sonra bir neçə saniyə davam edən təkan hiss etdiklərini deyirlər. "Şərq" türk mediasına istinadən xəbər verir ki, AFAD müəmmalı hadisənin aşkarlanması üçün araşdırmalarını davam etdirir.**

Siirtin Meydandərə kəndindən sonra Tillo mahalına bağlı Akyayla kənd muxtarı Halit Aygün yeraltı səs gəldiyi iddiası ilə İl Afet və Təcili Yardım Müdirliyinə müraciət edib.

Meydandərə kəndindən təxminən 3,5 kilometr aralıda yerləşən Akyayla kəndinin muxtarı avqustun 9, saat 23.30 radələrində yeraltı səs-küy olduğunu və bir neçə saniyəlik titrəmə hiss etdiklərini bildirib və araşdırma aparılmasını istəyib.

Akyayla kənd muxtarı Halit Aygün evdə yatarkən səs-küy eşitdiyini və sarsıntı keçirdiyini bildirib: "Elə bil ki, evin sütunları qırıldı. Evlərin üstümüzə düşəcəyini düşündük. Bütün kəndlilər bunu hiss edib evlərindən çıxdılar".

Narahat olduqlarını və AFAD-a müraciət etdiklərini vurğulayan Aygün bu səs-küy və sarsıntının mənbəyinin bir an əvvəl müəyyənləşdirilməsini və problemin çözülməsini istədiklərini bildirib.

Kənddə yaşayan digər vətəndaş Umayitin Aygün əvvəl iki dəfə hiss etdiyi təkanların bu dəfə daha təsirli olduğunu bildirib.

Eşitdiyi səsin "partlayış səsi"nə bənzədiyini deyən Aygün bunun zəlzələ olduğunu düşündüklərini, lakin evlərdə heç bir çat və ya görünən təsirin olmadığını bildirib.

Sadık Aktı isə bildirib ki, ailəsi ilə balkonda söhbət edərkən qorxulu bir səs onları sarsıdıb.

Daha əvvəl belə bir səs eşitmədiyini deyən Aktı, "Qorxulu bir səs idi. Daha əvvəl də zəlzələ yaşadım. Bunun zəlzələ ilə əlaqəsi olduğunu düşünmürəm" deyə bildirib.

AFAD İl müdiri Cahit Akkoyun isə daha əvvəl geoloq mühəndis qrupu ilə Meydandərə kəndində araşdırma apardıqlarını xatırladaraq, hazırlanacaq hesabatı yaxın günlərdə təqdim edəcəklərini bildirib.

Akyayla kəndi muxtarının da onlara oxşar şikayətlərlə müraciət etdiyini bildirən Akkoyun bu kənddə baş verənləri də ən qısa zamanda araşdıracaqlarını bildirib.

Akkoyun deyib: "Hər iki kəndimiz təbii fəlakət təhlükəsi olan bölgədə yerləşir. Meydandərə kəndi sürüşmə kütləsi üzərində, Akyayla kəndi isə qaya uçqunu fəlakətinə məruz qalmış ərazidə salınıb. Hər iki kəndimizdə araşdırma aparılır və tərəfimizdən təqib olunur".

**Turan Can**

# Vegetarian qadınlara pis xəbər

### Omba sınığı riski vegetarian olmayanlara nisbətən 33 faiz yüksəkdir



**Alimlər müəyyən ediblər ki, vegetarian qadınlarda omba sınığı riski vegetarian olmayanlara nisbətən 33 faiz yüksəkdir.**

"Daily Mail" qəzetinin xəbərinə görə, Lid Universitetinin tədqiqatçıları ət və balıq istehlak edən və yeməyən qadınların omba sınığı riskini araşdırıblar.

26 318 orta yaşlı qadının iştirak etdiyi araşdırma vegetarianların ət və balıq yeyənlərə nisbətən omba sınığı riskinin 33 faiz daha çox olduğunu müəyyən edib. Tədqiqatçılar, omba sınıqlarının sümük və əzələlərin ehtiyac duyduğu qidaları almaması nəticəsində yarana biləcəyini bildiriblər. "Bizim tədqiqat vegetarian qadınlarda omba sınıqlarının çox olduğunu təsdiqləyir" deyə tədqiqatçı James Vebster bildirib. Vebster vegeterianlara yemək vərdişlərini dəyişmələri ilə bağlı xəbərdarlıq etmir, amma qidalanma qaydasında şəxsi şərtlərə riayət edilməsinin, balanslı və sağlam həyat tərzi üçün hansı qidaların lazım olduğunun bilinməsinin vacib olduğunu söyləyib. Vebster vegeterianların ümumiyyətlə sümük və əzələ sağlamlığı ilə əlaqəli qida maddələrinin daha az qəbul edilməsinin narahatlıq doğurduğunu qeyd edərək, bu cür qidaların ət və heyvan məhsullarında daha çox olduğuna işarə edib. Tədqiqatçılardan professor Janet Keyd omba sınığının insanları başqalarından asılı vəziyyətə salan, həyat keyfiyyətini aşağı salan və iqtisadi cəhətdən baha başa gələn bir sağlamlıq problemi olduğuna diqqət çəkib. Keyd, bitki əsaslı pəhrizlərin zəif sümük sağlamlığı ilə əlaqəli olduğunu söylədi, lakin omba sınığı riski ilə bağlı hələ heç bir dəqiq məlumat yoxdur. Tədqiqatlar subut edib ki, pəhrizlərə əsas qida maddələri əlavə etmək, əzələləri gücləndirmək və fiziki aktivliyi artırmaq sümük sağlamlığını qorumağa kömək edir.

Araşdırmanın nəticələri "BMC" tibb jurnalında dərc olunub.

**Turan**

# Özkürmə və ya asqırma səsinə bənzəyir

### Qorillalar gözətçiləri çağırmaq üçün yeni səs icad etdilər



**Atlanta Zooparkındakı qorillalar gözətçiləri çağırmaq üçün yeni bir səs öyrəniblər. Bu özkürmə və ya asqırma səsinə bənzəyir.**

Oxu.az xəbər verir ki, hadisə primatların mürəkkəb vokal birləşmələri öyrənmək qabiliyyətini nümayiş etdirir.

Təcrübələr göstərir ki, heyvanlar bu səslərdən məqsədyönlü şəkildə istifadə edir. Yeni səs standart qorilla səs siqnallarından akustik cəhətdən fərqlənir.